Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8-10 İYUN 2019-cu il

№ 100 (3998)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# ERMƏNİSTANDA «QARA GEYİMLİLƏRİN» PAŞİNYANA HİBRİD MÜHARİBƏSİ...

■ səh. 6 ■



## Ermənistanla qondarma «DQR» rejimi arasında ziddiyyətlər - Rusiya politoloqları «ayrılacaqlar» qənaətinə gəlir...

■ səh. 8 ■

Fransa məhkəməsinin antierməni demarşı ilə Mehriban Əliyevanın səfəri arasında əlaqə...

■ səh. 3 ■

Bakı və Ankaradan qeyri-konstruktiv İrəvana yeni hərbi mesajlar - qısa vaxtda 4 birgə təlim...

■ səh. 9 ■

Dolların mövqeyi sarsılır - manat yeni şəraitlə üz-üzə...

■ səh. 7 ■

Turist kart əlində POS-terminal axtarır - 13 min POS-terminal işləmir...

■ səh. 10 ■

Uşaqlar üçün tədbir adı ilə bilet satdıran "Cəlil MMC" barədə iddialar...

■ səh. 11 ■

Adambaşına 25 manat fitrə bir ailə üçün nə deməkdir...

■ səh. 15 ■

Bakıda özəl çimərliklər var, ictimai çimərliklər niyə olmasın...

■ səh. 12 ■



Hərbi təlimlərlə bağlı ATƏT-in Azərbaycana qarşı heç bir qərar verməK əsası yoxdur - Ermənistanın cəhdi havada qaldı...

■ səh. 4 ■

Ermənistanda xarici investisiyaların kökü yavaş-yavaş kəsilir...

■ səh. 6 ■



Andranikin qulağını kəsmiş məşhur azərbaycanlının nəvəsi Türkiyədən Azərbaycana yazdı...

■ səh. 5 ■

■ səh. 4 ■

Neft ixracının qeyri-dollar valyutalara keçidi Azərbaycana sərf edərmi...



■ səh. 10 ■

Orfoqrafiya lüğətinin çapı gecikir, yeni mübahisələr var...



■ səh. 14 ■

Yazıçı-bənna Prezident təqaüdünə layiq görüldü



■ səh. 15 ■

Dilənçilərin yanında gəzdirdikləri uşaqlarla bağlı şok şayiələr...



■ səh. 11 ■

Dayanacaqları zəbt edən avtobuslarla mübarizənin yeni qaydası təklif edilir



## Mərkəzi Bank uçot dərəcəsini 0,25% azaltdı

**Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 8.75%-dən 8.5%-ə endirilməsi haqda qərar qəbul edib.**




"Trend"ə bankdan verilən məlumata görə, faiz dəhlizinin yuxarı həddi 10.5%, aşağı həddi isə 6.5% (uçot dərəcəsinə ±2%-lik simmetrik diapazonda) səviyyəsində müəyyən edilib.

İnflyasiya proseslərinə gəlincə, gözlənilən trayektoriyada dəyişir. 2019-cu ilin aprel ayında 12 aylıq inflyasiya hədəf çərçivəsində olmaqla 3.1% təşkil edib.

## Tereza Mey Mühafizəkarlar Partiyasının rəhbərliyindən də istefa verdi

**Britaniya Baş naziri Tereza Mey Mühafizəkarlar Partiyasının lideri vəzifəsindən istefa verib. Onun varisi gələn həftə keçiriləcək seçkilərdə müəyyən olunacaq.**



Mey Baş nazir postunda ölkənin yeni lideri seçilənədək qalacaq. Yeni Baş nazirin iyulun sonunda seçiləcəyi gözlənir.

Ancaq indidən Mey Britaniyanın Avropa İttifaqından çıxması prosesinə nəzarəti dayandırıb.

Növbəti Baş nazirin Avropa İttifaqından çıxmaq üçün planla çıxış etməsinə beş ay vaxtı olacaq.

Mey 2016-cı ildə Britaniyanın Aİ-dən çıxmaq üzərində referendumda səs verməsindən sonra ölkəsini ittifaqdan ayırmağa 3 il vaxt sərf etdi. Lakin parlament onun səylərinin qarşısını üç dəfə alıb.

Meyi əvəzləməyə iddialı olan 11 namizəd arasında Britaniyanın sabiq xarici işlər naziri Boris Conson da var. Conson Brexit planına dəyişikliklər etmək istədiyini açıqlayıb, hərçənd ki, Avropa İttifaqı danışıqlara yenidən qayıtmaq ideyasını rədd edib.

Britaniyanın mühafizəkar düşərgəsi avroskeptiklərin lideri sayılan Nigel Farajın təzyiqləri ilə üzləşir. Brexit hərəkatının ilhamvericilərindən biri kimi tanınan Faraj Britaniyanın Avropa İttifaqından tam çıxmasını dəstəkləyir.

## Argentina və Braziliya vahid valyuta yaradır

**Argentina və Braziliya vahid valyuta yaradılması imkanlarını nəzərdən keçirir. "Trend"in məlumatına görə, müvafiq planlar Braziliya prezidenti Jair Bolsonaru və iqtisadiyyat naziri Paulu Qedesin Argentinaya səfəri zamanı müzakirə olunub.**

İşgüzar dairələr belə bir fikrə daha öncədən gəlmişdi.

Yaradılacaq yeni vahid valyutanın isə peso real adlanacağı qeyd edilir. Bu, hazırda iki Cənubi Amerika ölkələsinin pul vahidlərinin adından ibarət bir sözdür.

Bu iki ölkə arasında vahid valyuta yaradılması istiqamətində gələcəkdə intensiv addımlar atılacağı qeyd edilib.

# Prezident İlham Əliyev: "Müstəqillik illərində memarlıq və şəhərsalma sahəsində sosial inkişafın əsası kimi qiymətləndirilən mühüm işlər görülüb"

**Prezident İlham Əliyev "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumunun iştirakçılarına müraciət ünvanlayıb.**

Müraciətdə deyilir: "Hörmətli forum iştirakçıları! Sizi ölkəmizin paytaxtında "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumunun öz işinə başlaması münasibətilə səmimi təbrik edir, hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Biz ilk mötəbər forumunuzun unikal memarlıq abidələri və eyni zamanda modern üslublu binalarla zəngin, təkrarsız görkəmə malik Bakı şəhərində təşkilini yüksək qiymətləndiririk. Bu, şəhərsalma və memarlığı özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan mədəniyyətinə ehtiramın təzahürüdür. Turizmin müasir problemləri, o cümlədən dövrümüzün reallıqları ilə yaxından səsləşən kütləvi turizm fenomeni ətrafında müzakirələrin məhz belə tarixi məkanda aparılması forumunuza aktuallıq qazandırır.



Artıq ayrıca sənaye sahəsinə çevrilmiş olan turizm sektoru hazırda dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rol oynamaqdadır. Azərbaycanı onun təbii sərvətləri və rəngarəng coğrafi landşaftı, zəngin mədəni irsi və yenilənmiş infrastrukturu turizm baxımından cəlbedici edir. Bu mədəni və ekoloji turizm potensialı nəzərə alınaraq respublikamızda turizm sektorunun inkişafı ən prioritet hədəflərdən biri elan edilmişdir. Məqsəd təbiət abidələrimizi və xalqımızın böyük keçmişinin izini yaşadan qədim mədəniyyət yadigarlarını geniş miqyasda tanıtmaqdır.

Vurğulamaq istərdim ki, müstəqillik illərində memarlıq və şəhərsalma sahəsində sosial inkişafın əsası kimi qiymətləndirilən mühüm işlər görmüşük. Yaşayış yerlərinin mühəndislik və nəqliyyat infrastrukturu modernləşdirilmiş, yüksək səviyyəli otellər və neçə-neçə sosial obyekt inşa edilmişdir. Bu işlərin uğurla gerçəkləşdirilməsi memarlarımızın fəaliyyəti ilə sıx əlaqəlidir.

Onlar ölkəmizdə mədəni özünəməxsusluğun qorunub saxlanması və əcdadlardan qalma mirasın gələcək nəsillərə layiqli şəkildə çatdırılması naminə var qüvvələri ilə çalışırlar. Son illər memarlarımızın xüsusən tarixi şəhərlər və kütləvi turizm arasında ahəngdarlığın təmin edilməsi üçün Beynəlxalq Memarlar İttifaqı ilə münasibətləri zəminində göstərdiyi təşəbbüs və atdığı addımlar təqdirə layiqdir.

Ümidvaram ki, forum çərçivəsində memarların tarixi yerlərdə kütləvi turizmin idarə olunmasında roluna dair aparacağınız diskussiya və fikir mübadilələri, irəli sürəcəyiniz tövsiyə və təkliflər turizmin aktual məsələlərinin həllinə öz töhfəsini verəcək, həmçinin əməkdaşlığınızın daha da dərinləşməsi və yeni istiqamətlərinin müəyyənləşməsinə xidmət edəcəkdir".

# Özünü FHN işçisi kimi təqdim edən saxtakar ər-arvad tutuldu

**Fövqəladə Hallar Nazirliyi və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatına görə, özünü Fövqəladə Hallar Nazirliyinin məsul işçisi Milana Xoçperova kimi təqdim etmiş Əlbəşirova Heyran Mürsəl qızının qanunsuz hərəkətləri barədə həmin nazirlik tərəfindən toplanmış material aidiyyəti üzrə hüquqi qiymət verilməsi üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.**

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış araşdırmalarla Heyran Əlbəşirovanın, əri Balağa Əlbəşirovla cinayət əlaqəsinə girməklə nazirliyin saxta xidməti vəsiqəsini hazırlamasına, özbaşına özünü həmin dövlət qurumunun məsul işçisi kimi təqdim edərək 2012-ci ilin may ayında Balakən və Zaqatala rayonları ərazisində baş vermiş zəlzələ nəticəsində yararsız hala düşmüş yaşayış evlərinə dəymiş ziyanın ödənilməsinin təşkil edilməsi adı ilə etibarlarından sui-istifadə edərək ümumilikdə 21 nəfərə məxsus cəmi 24 min manat məbləğində pul vəsaitini ələ keçirib dələduzluq etmələrinə əsaslı şübhələr müəyyən edilib. Həmin fakta görə Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və 320.1-ci (hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama) maddələri ilə cinayət işi başlanıb.



Aparılmış istintaqla həmin şəxslərə Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.2 (dələduzluq təkrar törədildikdə), 178.2.4 (dələduzluq xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə), 32.4,312.2 (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət və ya təkrar rüşvət verməyə təhrik etmə), 320.1 (hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama) və 320.2-ci (Cinayət Məcəlləsinin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham elan olunmaqla barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılaraq təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Respublika Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə və 361-11-76 nömrəsinə və ya Fövqəladə Hallar Nazirliyinin 112 saylı "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

**Fövqəladə Hallar Nazirliyi və Baş Prokurorluğun birgə məlumatında o da bildirilir ki, təbii fəlakət və fövqəladə halların nəticələrindən zərər çəkən vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində bundan sonra da ən ciddi tədbirlər həyata keçiriləcək.**

**Məlum olduğu kimi, mayın 30-da Fransanın Val d'Oise Departamentinin İnzibati Məhkəməsi Arnuvil şəhəri ilə Dağlıq Qarabağdakı erməni separatçıları arasında imzalanan "Dostluq Xartiyası"nı ləğv edib. Sözügedən "sənəd" Fransanın Arnuvil şəhərinin meri Paskal Dol ilə hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın Xocavənd rayonunun Şeher yaşayış məntəqəsinin separatçı rəhbəri arasında imzalanmışdı.**

# Fransa məhkəməsinin antierməni demarşı ilə Mehriban Əliyevanın səfəri arasında əlaqə...

Dağlıq Qarabağa qanunsuz səfər edərək orada separatçılarla görüşən və "sənəd" imzalayan merə qarşı ittiham Fransa hökuməti tərəfindən ölkənin regionları ilə əməkdaşlığa dair qanunun pozulması maddəsi ilə irəli sürülüb. Şikayətə baxan Fransanın Val d'Oise Departamentinin Cergy-Pontoise İnzibati Məhkəməsi fransalı merin əleyhinə qərar verib.

Məlumat üçün qeyd edək ki, 2018-ci ilin oktyabrında Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa qanunsuz səfər edib və separatçılarla bir sıra görüşlər keçiriblər. Bundan sonra Fransanın Bakıdakı səfiri Oreliya Buşe Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Ona Fransa nümayəndələrinin Azərbaycanın maraqlarına, onun suverenliyi və ərazi bütövlüyünə toxunan bir sıra addımları, o cümlədən, bu yaxınlarda Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri tərəfindən edilən qanunsuz səfərlərlə bağlı rəsmi etiraz bildirilib.

Fransa nümayəndələrinin bu kimi addımlarına hüquqi və siyasi qiymətlər verilib, Fransa hökuməti bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görməyə çağırılıb və qarşı tərəfə Azərbaycan XİN-in rəsmi notası təqdim olunub.

Ondan sonra gedən proseslər, göründüyü kimi, Azərbaycanın xeyrinə nəticələndi və Fransa məhkəməsi ədalətli qərar çıxardı. Belə bir obyektiv qərarın çıxarılması şübhəsiz ki, Azərbaycan-Fransa dostluq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək. İki ölkə əlaqələrinin möhkəmlənməsi istiqamətində bir sıra mühüm addımların atıldığını xüsusilə qeyd etmək olar. Qeyd edək ki, bu ilin mart ayında ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri reallaşdı. Həmin səfər zamanı onun Fransanın ali rəhbərləri ilə işgüzar görüşləri keçirildi. Məhz həmin səfərdən sonra Fransa ilə Azərbaycan arasındakı münasibətlərdə yaranan nisbi soyuqluğa son qoyuldu, bir sıra məsələlərlə bağlı mövqelər aydınlaşdırıldı. Artıq həmin səfərdən doğan nəticə özünü Fransa məhkəməsinin qəbul etdiyi obyektiv qərarda da göstərmiş olub. Bu baxımdan da Mehriban xanım Əliyevanın son Fransa səfərini iki ölkə münasibətlərinin yaxşılaşması istiqamətində mühüm amil kimi dəyərləndirmək olarmı?

Politoloq Yeganə Hacıyeva qəzetimizə açıqlamasında bildirdi ki, Fransa həmsədr ölkə kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konfliktinin beynəlxalq hüquq çərçivəsində, ATƏT-in prinsipləri əsasında danışıqlar vasitəsilə, sülh yolu ilə həlli istiqamətində uzun illərdir fəaliyyət göstərir: "ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi Fransanın əsas vəzifəsi, əlbəttə, beynəlxalq hüquq çərçivəsində Ermənistan-Azərbaycan konfliktinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. Bu illər ərzində Fransanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi fəaliyyətini iki: aktiv və nisbətən passiv fazalara bölə bilərik. 2000-ci illərə qədər davam edən aktiv fazada həmsədr ölkə kimi Fransa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konfliktinin həllinə dair "paket", "mərhələli", "ümumi dövlət" ideyasının əsas müəlliflərindən olub. Passiv faza adlandırdığımız daha sonraki illərdə isə ATƏT-in Minsk Qrupu həmsədri kimi Fransa Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə təklifləri və qrupun digər həmsədr ölkələrinin təklifləri əsasında aparılan fəaliyyətin ümumi dəstəkçisi olub".



Politoloqun qənaətincə, Fransa Avropada ermənilərin kompakt yaşadığı bir ölkə kimi erməni lobbisinin fəaliyyətindən də kənarda qalmayıb, zaman-zaman seçkilər ərəfəsində siyasi spekulyasiyalara yol açan "erməni soyqırımı" məsələsi bu ölkənin xarici siyasətinin formalaşmasına da müəyyən qədər təsir edib: "Bu səbəbdən də mövzu ətrafında gedən proseslər ərəfəsi Ermənistanı birmənalı şəkildə dəstəkləməsi ATƏT-in Minsk Qrupundakı həmsədər ölkə kimi Fransanın mandatı ilə ziddiyyət təşkil edib və bizdə fəaliyyətinin ədalətli olması istiqamətində şübhələr oyadıb. Ümumilikdə, Fransanın Dağlıq Qarabağ konfliktinin həllinə yanaşması 3 istiqamət ətrafında formalaşır. Birinci, Fransa dövlətinin ümumi Qafqaz siyasəti ətrafında formalaşan maraqları çərçivəsində. İkinci, Fransanın Avropa Birliyi çərçivəsində birliyin Cənubi Qafqaz maraqları ətrafında formalaşan siyasəti. Üçüncü isə Fransanın Azərbaycanla dövlətlərarası qarşılıqlı maraqları çərçivəsində formalaşan siyasəti. Bir məsələni konkret qeyd etmək istəyirəm, uzun illər ərzində Fransanın daxildə erməni lobbi qrupu faktoru, onlarla əməkdaşlıq edən müxtəlif siyasi qrup üzvlərinin səbəb olduğu Dağlıq Qarabağ ətrafında ermənipərəst yanaşma görüntüsü Fransa dövlətinin xarici siyasətinə tam təsir edə bilməyib. Ancaq belə cəhdlər olub. Fransanın hansısa subyektlərinin Azərbaycanın ərazilərini işğal edən separatçı qurumla "bərabərhüquqlu" müqavilələr imzalaması kimi faktlar təbii ki, iki ölkə arasındakı ziddiyyətləri dərinləşdirən amil sayıla bilər. Düzdür, Fransa hakimiyyəti belə hallarda məsuliyyəti yerli subyektlərin üzərinə atmağa çalışsa da, bu, iki ölkə arasındakı münasibətlərə mənfi mənada təsir edə bilən faktordur. Təbii ki, iki ölkə arasındakı münasibətlərin daha da yaxşılaşmasında yüksək ölkə rəsmilərinin qarşılıqlı səfərləri də önəmli rol oynayır. Bu baxımdan ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Fransaya son səfərini xüsusi qeyd etmək yerinə düşər. Onun Fransa siyasi istebleşmenti ilə keçirilən görüşlərində Dağlıq Qarabağ konfliktinin tarixi, konfliktin dərinləşməsinin və mövcud status-kvonun qlobal və regional təhlükəsizlik, enerji məsələlərinə hansı hədələr yaratması, konfliktin ədalətli həllinin Fransa və Avropa Birliyinin Cənubi Qafqaz maraqlarına necə müsbət təsir edə biləcəyi haqqında reallıqları xatırladılıb. Görüşlərin nəticəsi olaraq Fransa rəsmiləri regional təhlükəsizliyə hədə olan konfliktin həlli ilə bağlı öz səylərini əsirgəməyəcəyini bildiriblər. Fransa məhkəməsinin qəbul etdiyi obyektiv qərardan da görünür ki, həmin Avropa ölkəsi Azərbaycanla münasibətlərin daha yaxşı məcrada davam etməsində maraqlıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan parlamentdə etdiyi çıxışda "Çiçəklənən Ermənistan" fraksiyasının sədr müavini Tiqran Uruxariyanın sualına cavab olaraq bildirib ki, erməni tərəfi Azərbaycan-Türkiyə birgə hərbi təlimləri ilə bağlı ATƏT-də məsələ qaldıracaq.**

# Hərbi təlimlərlə bağlı ATƏT-in Azərbaycana qarşı heç bir qərar verməK əsası yoxdur - Ermənistanın cəhdi havada qaldı...



*"ATƏT-in bununla bağlı hər hansı qərar verəcəyi real görünmür"*

## *Əli Orucov: "Azərbaycan müstəqil dövlət olaraq istənilən ölkə ilə müştərək hərbi təlimlər keçirmək hüququna malikdir"*

Bunu elan olunmamış demarş adlandıran erməni nazir bu məsələnin hökumət tərəfindən xüsusi narahatlıqla izləndiyini bildirib: "Bu narahatlıq regional təhlükəsizlik və sabitlik çərçivəsindədir. Müvafiq alətlərin tətbiqi məsələsi artıq qaldırılıb".

Azərbaycan ərazilərini işğal edib olmazın soyqırımlar törədən, ərazimizdə dəfələrlə ağır silahlardan istifadə edərək hərbi təlimlər keçirən, ərazilərdə süni yanğınlar törədərək, hətta əkinçiliklə məşğul olan sadə camaata belə əlindən gələn pisliyi edən erməni tərəfi öz bədnam əməllərindən əl çəkmək istəmir.

Görünən odur ki, sözügedən təlimlər erməni tərəfinin canına necə qorxu salıbsa, dünyanın diqqətini buna çəkməyə çalışır. Təlimlər hələ başlamamışdan düşmənin canına qorxu salıb.

Maraqlı olan məqam odur ki, ATƏT sözügedən məsələyə baxa bilərmi? Tutaq ki, ATƏT buna baxıb hər hansı qərar qəbul etdi, o zaman bu nə dərəcədə əsaslı olar?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov buna bir neçə aspektdən yanaşdı:** "Ermənistan zaman-zaman Azərbaycan-Türkiyə hərbi əməkdaşlığından narahat olub. Erməni tərəfi Türkiyənin hərbi sahədə malik olduğu böyük təcrübənin fərqindədir və bundan Azərbaycan Ordusunun faydalanmasını narahatlıqla izləyir. Ona görə də məsələni ATƏT müstəvisində qaldırmaqla bunu Azərbaycana qarşı yönəltmək istəyirlər. Ancaq düşünürəm ki, ATƏT Ermənistanın bununla bağlı "narahatlığını" nəzərə alsın və Azərbaycana yönəlik hər hansı bir qərar qəbul etsin. Onsuz da danışıqlar, praktiki olaraq, dalana dirənmiş vəziyyətdədir. Ermənistan, faktiki olaraq, danışıqları sabotaj edir. Belə bir mürəkkəb ortamda ATƏT-in bununla bağlı hər hansı bir qərarı Azərbaycanın sərt reaksiyasına səbəb ola bilər. Bu da, öz növbəsində, danışıqların pozulmasına səbəb ola bilər. İndiki situasiyada bu nə ATƏT-ə, nə də həmsədrlərə sərf edir. Onlar hesab edirlər ki, bütün hallarda, hansısa danışıqların olması danışıqların olmamasından daha yaxşıdır. Çünki ATƏT hər vasitə ilə çalışır ki, cəbhə bölgəsində hərbi eskalasiya başlamasın. Ona görə də ATƏT-in sözügedən təlimlərlə bağlı hər hansı qərar verəcəyi real görünmür. Başqa bir tərəfdən, ATƏT-in bununla bağlı Azərbaycana yönəlik hər hansı bir qərar vermək əsası da yoxdur. Ona görə ki, Azərbaycanın beynəlxalq hüquqla tanınan əraziləri işğala məruz qalıb. Azərbaycan danışıqlarda iştirak edən tərəf olsa da, bu o demək deyil ki, öz hərbi gücünü artıra bilməz. Bununla yanaşı, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində dəfələrlə qanunsuz olaraq hərbi təlimlər keçirib. Özü də beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq bunu edib. Yaxşı olardı ki, Mnatsakanyan buna izahat versin. ATƏT indiyə qədər Ermənistanın bu həyasızlığına öz etirazını bildirməyib.

Hansı ki, işğal olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələrinin böyük heyəti ağır texnikalarla təlimlər keçirir. Azərbaycan müstəqil dövlət olaraq istənilən ölkə ilə müştərək hərbi təlimlər keçirmək hüququna malikdir".

***Vidadi ORDAHALLI***

---

**İki gün öncə Rusiya Prezidenti Vladimir Putin və Çin lideri Si Tsinpin Moskvada görüş keçiriblər. Görüş zamanı tərəflər bir sıra məsələləri, həmçinin, Rusiya və Çinin ABŞ-la əlaqələrini müzakirə ediblər.**

# Neft ixracının qeyri-dollar valyutalara keçidi Azərbaycana sərf edərmi...



*"Bu o qədər asan olsaydı, Rusiya indiyə qədər buna nail olardı"*

## *Fikrət Yusifov: "Neftin dollarla deyil, digər valyutalarla ixracı Azərbaycana sərfəli deyil"*

Bundan başqa, iki ölkə liderləri iqtisadi-ticari əməkdaşlıq məsələlərinə də toxunublar. Putin qeyd edib ki, Rusiya və Çin dollardan imtina edərək, hesablamaları milli məzənnələrdə (rubl və yuan) aparmaq niyyətindədirlər: "Rusiya və Çin milli valyutalarla ödəmə tətbiqini inkişaf etdirmək niyyətindədirlər. İkili ticarətdə rubl və yuan istifadəsinin genişləndirilməsi və qlobal bazardakı qeyri-sabitliyin fonunda bank sektorunda daimiliyin təmin olunması məqsədilə hökumətlərarası razılaşma imzaladıq".

O da məlum olub ki, Rusiya neft ixracını dollarla deyil, digər valyutalarla planlaşdırır. Belə ki, Rusiya tərəfi Avrasiya İqtisadi İttifaqının üzvlərinə nefti rublla, digər ölkələrə isə avro və Çin yuanı ilə ixrac etməyi planlaşdırır.

Maraqlıdır, zərurət yaranarsa, Azərbaycan da öz neftini dollarla deyil, digər valyutalarla ixrac edə bilərmi? Nəzərə almaq lazımdır ki, hələlik neft gəlirləri ölkənin ixracında və büdcənin formalaşmasında mühüm rol oynayır. Azərbaycan neftini dollarla deyil, digər valyutalarla ixrac edərsə, bu sərfəli olarmı?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, neftin dollarla deyil, digər valyutalarla ixracı Azərbaycana sərfəli deyil.** O bunu bir sıra arqumentlərlə əsaslandırdı: "Lap bunun avro ilə aparılması belə bizə sərfəli deyil. Niyə? Ona görə ki, neft ixracını dollarla deyil, qeyri-neft valyutalarla aparmaq çətindir. O mənada çətindir ki, bununla bağlı etalon, ölçü vahidi dollardır. Çünki bütün dünya təşkilatlarının, dünya ölkələrinin qəbul etdiyə bir nömrəli valyuta dollardır. Bu gün dünyada xarici hesablaşmaların hardasa 75-80 faizi dollarla aparılır. Belə bir fonda neft ixracını başqa valyutalarla aparmaq mümkün olsaydı, yəqin ki, Rusiya çoxdan buna nail olardı. Rusiya, Çin, İran, Türkiyə və digər ölkələr dəfələrlə ticarətdə dollardan imtina etməyi bəyan ediblər, amma bu, praktiki olaraq, reallaşmayıb. Çünki bu, deyildiyi qədər asan deyil. Ona görə ki, bu gün dünyada milli valyutaların kursları dollara nisbətdə müəyyən edilir. Belə bir vəziyyətdə Azərbaycanın buna getməsi risqlidir. Bu o qədər asan olsaydı, Rusiya indiyə qədər buna nail olardı. Rusiya illərlə çalışır ki, dollarla hesablaşmalardan çıxsın. Xüsusən də Ukrayna ətrafında baş verən hadisələrdən sonra ABŞ-ın tətbiq etdiyi sanksiyalarla əlaqədar Rusiya neft satışını başqa valyutalarla həyata keçirməyə cəhd edir. Ancaq hələ ki, bununla bağlı bir nəticə ortada yoxdur. İnanmıram bundan sonra da buna nail olsunlar. Rusiyanın bununla bağlı növbəti qərarını inanmıram ki, həyata keçirmək mümkün olsun. Nə qədər ki, dünya ölkələri tərəfindən dolları əvəz edən valyuta ortaya qoyulmayıb, hesablaşmalarda dollardan imtina etmək mümkün olmayacaq.

Bununla bağlı qərarlar siyasi gedişlərdən və bəyanatlardan o tərəfə keçmir. Praktiki olaraq, bunu reallaşdırmaq mümkün olmur".

***Vidadi ORDAHALLI***

# Andranikin qulağını kəsmiş məşhur azərbaycanlının nəvəsi Türkiyədən Azərbaycana yazdı...

***Yücel Laçın:** "Sultan bəyin Azərbaycandan olan bütün yaxın qohumları həmin məzarı ziyarət edib, onun başında şəkil də çəkdiriblərsə, burada əlavə söz-söhbətə nə ehtiyac var?"*

**Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun qardaşı, erməni generalı Andranik Ozanyanın qoşununu darmadağın edən, hətta bəzi bilgilərə görə, onun qulağını kəsən Sultan bəy Sultanovun məzarının Türkiyənin Qars vilayətinin Koçköy kəndində olması ilə bağlı məlumatlar yayılıb.**



Qeyd edək ki, həmin məzarın Sultan bəyə aid olması ilə bağlı məlumatı Azərbaycan cəmiyyətinə ilk dəfə Beynəlxalq Diaspor Mərkəzi verib. Qurumun sədri İsmayıl Ağayev həmin məzarın abadlaşdırılması istiqamətində bəzi işlərin görüldüyünü, hətta məzara Sultan bəyin böyük portret şəklinin vurulduğunu bildirib.

BDM sədri İsmayıl Ağayevin rəhbərliyi ilə 2 il öncə Koçköy kəndində Sultan bəyin məzarı önündə Qarsdakı baş konsulun iştirakı ilə tədbir keçirilib.

Müstəqil araşdırmaçı Orxan Cəbrayıl Sultan bəy Sultanovun məzarının Qarsda deyil, Bursa şəhərində olması ilə bağlı məlumatların olduğunu deyir: "Belə bir versiya var ki, Sultan bəy Türkiyədə mühacirətdə olduğu dönəmdə Qarsın Koçköy kəndində yaşamış və orada vəfat etmişdir. Lakin həmin məzarın üzərində Sultan bəyə aid olması ilə bağlı heç bir yazı yoxdur. Ümumiyyətlə, Sultan bəyin Qarsda yaşaması, orada vəfat etməsi və məzarı haqqında bilgilər heç bir sənədə, tarixi mənbəyə əsaslanmadan bir fərziyyə olaraq irəli sürülüb. Kənd camaatı məzar sahibinin 1935-ci ildə vəfat etdiyini bildirir. Lakin Sultan bəy 1942-ci ildə vəfat edib. Sultan bəyin qohumları olduğunu iddia edən adamlar Xosrov bəy haqqında heç bir məlumata sahib deyillər. Hansı ki, həmin vaxtlar Xosrov bəylə Sultan bəyin əlaqələri olub və təsadüfi deyil ki, Xosrov bəy qardaşının vəfat etməsi ilə bağlı "Cümhuriyyət" qəzetinin 15 aprel 1942-ci il sayında məlumat verib. Məlumat üçün bildirim ki, həm Sultan bəy, həm Xosrov bəylə bağlı bütün işlər millət vəkili Mahir Abbaszadənin nəzərindədir. Bir dəfə nümayəndə heyəti göndərib, bir dəfə də bilavasitə özü Qarsda Koçköy kəndində gedərək, həmin naməlum məzara baş çəkib. Məzarın abadlaşdırılması ilə bağlı yetkililərlə də görüşüb. Mən özüm də məzarın Sultan bəyə aid olması ilə bağlı şübhələrimi ona çatdırmışam. Çünki həm ora gedən nümayəndə heyətinin, həm də mənim o kənddən olan insanlarla ünsiyyətim zamanı belə bir qənaətə gəldik ki, həmin məzar Sultan bəyə aid deyil. Sonralar Türkiyə Cümhuriyyəti Dövlət Arxivindən Xosrov bəylə bağlı əldə olunan bəzi sənədlərdə onun tez-tez Bursaya səfər etməsi ilə bağlı bilgilər əldə etdik. Bu işlə əlaqədar olaraq mən 1 il əvvəl Bursada oldum, ancaq ciddi bir məlumat əldə edə bilmədim. Amma bu yöndə axtarışlar davam edir. Abidə ucaltmaq, məzarı abadlaşdırmaq fərziyyələr üzərindən hərəkət etməklə mümkün olacaq bir iş deyil. Düşünürəm ki, bu axtarışların nəticəsi bəlli olduqdan sonra məzarın abadlaşdırılması istiqamətində işlərin görülməsi daha məqsədəuyğun olar. Azərbaycanın istiqlalı və torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə misilsiz xidmətləri olmuş, öz adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazmış Xosrov bəy və Sultan bəy Sultanov qardaşlarının adları əbədiləşdirilməli, layiq olduqları qiymətin verilməsi böyük mənəvi əhəmiyyət kəsb edir".

Bütün bu iradlara aydınlıq gətirmək üçün Sultan bəyin məzarının Qarsda olduğunu ilk iddia edən və həmin məzarı abadlaşdıran BDM sədri İsmayıl Ağayevlə əlaqə saxladıq. O, qəzetimizə açıqlamasında bildirdi ki, Sultan bəyin məzarı ətrafında açılan bu cür yersiz polemikaları təqdir etmir: "Həmin şəxsiyyətin Azərbaycan tarixindəki rolu bizi onunla bağlı araşdırma aparmağa vadar etdi. İlk dəfə bu barədə məlumatı Sultan bəyin qardaşı oğlu, metropolitenin sabiq rəis müavini Elbrus Əliyev verdi. O, Türkiyədə bu istiqamətdə araşdırma aparıb və ona həmin qəbri göstəriblər. Onunla söhbətdən sonra biz gedib həmin kəndi ziyarət etdik. Apardığımız bütün araşdırmalar həmin məzarın məhz Sultan bəyə məxsus olduğuna qəti şübhə yeri qoymadı. Onun nəvəsi Yücel Laçın var. Türkiyədə tanınmış şəxslərdəndir. Onda Xosrov bəyin silahı və xəncəri də qalıb. Nəvəsi onun silahlarını saxlayır. Biz həmin məzarı tapanda bu gün məzar ətrafında polemikaları qızışdıran millət vəkili təklif etdi ki, bu işləri birlikdə görək. Biz razı olmadıq. İndi deyirlər həmin məzar başqa adama məxsusdur. Görünür, bundan da dividend götürmək istəyən adamlar var. Bir daha xatırladıram ki, Soltan bəyin iki yaxın qan qohumu - Elbrus və Yücel bəy həmin məzarın həqiqətən Xosrov bəyə aid olduğunu təsdiqləyir. Başqa nə cür polemika istəyirlərsə, mən hazıram. Qəbrin niyə indiyə kimi abadlaşdırılmaması iddiası ortaya qoyulur. Gedin, həmin kəndin məzarlığına baxın. Orada bütün məzarlar eyni ölçüdədir. Yəni heç bir dəbdəbə görməzsiniz. Sultan bəy təqib olunduğu üçün həmin kənddə əsl kimliyini gizlətməyə məcbur olub. Çünki bilirdi ki, rus casusları və erməni daşnakları onu izləyirlər. Mən bildirilən iradların hamısını əsassız sayıram".

Sultan bəyin nəvəsi kimi təqdim olunan Y.Laçın da qəzetimizə bu məsələ ilə bağlı münasibət bildirməyə hazır olduğunu bildirdi. Türkiyədə nüfuzlu iş adamı olan Y.Laçın Azərbaycanda onun babası ilə bağlı belə yersiz söhbətlərin aparılmasından ciddi narahatlıq keçirdiyini bildirdi: "Mən Azərbaycanda olan qohumlarımıza da bu barədə məlumat verdim. Onlar da lazım gəlsə mövqelərini bildirəcəklər. Biz bilirik ki, Xosrov bəyin məzarı İstanbuldadır. Onun qardaşı olan, yəni bizim babamız Sultan bəyin isə məzarı Kocköydədir. Ora bizim kəndimizdir. Sultan bəyin Azərbaycandan olan bütün yaxın qohumları həmin məzarı ziyarət edib, onun başında şəkil də çəkdiriblərsə, burada əlavə söz-söhbətə nə ehtiyac var? Sultan bəyin məzarının Qarsın Koçköy kəndində olmasına dair heç bir şübhələr ola bilməz. Biz onun Azərbaycanda olan hansısa malına, mülkünə iddialı deyilik. Başa düşə bilmirəm, niyə bəzi insanlar belə narahatlıq keçirirlər? Bizim Türkiyədə işimizgücümüz, özümüzə görə imkanımız var. Məzarın əbədiləşməsinə Azərbaycan kömək edəcəksə, buyursunlar, etməsələr belə sağ olsunlar, özümüz orada nə lazımdır inşa edərik. Ancaq biz kimlərəsə imkana verməri ki, bizim tariximizi, soykökümüzü saxtalaşdırmağa cəhd etsinlər.



*"... əlimizdə dəlillər, təkzibedilməz sübutlar olmasaydı..."*

Yaxşı, Sultan bəyin məzarı o deyilsə, bəs hansıdır? Qoy bunu iddia edənlər gəlib mənə Türkiyədə onun yerini göstərsinlər. Biz, sadəcə, söz olaraq bunu demirik, əlimizdə dəlillər, təkzibedilməz sübutlar olmasaydı, belə iddianı irəli sürməzdik".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkəsində yaranmış gərgin vəziyyətlə bağlı maraqlı açıqlama verib. Erməni KİV-inin verdiyi məlumata görə, beynəlxalq iqtisadi foruma iştirak etmək üçün Peterburqa uçmazdan əvvəl o, narahatlığını dilə gətirib. Paşinyan səfərdən bir neçə saat əvvəl DİN və MTX rəhbərləri Valeri Osipyan və Artur Vanesyana müraciət edərək, hökumət iclasında bildirib ki, bəzi qüvvələr Ermənistana "hibrid müharibə elan ediblər".**

# Ermənistanda "qara geyimlilərin" Paşinyana hibrid müharibəsi...



O, Ermənistanda xaos yaratmaq istəyənlərə, idarəolunmazlıq, dezinformasiya toxumu səpənlərə qarşı qətiyyətli mübarizə aparmağı tapşırıb. Maraqlıdır ki, Paşinyan "hibrid müharibə"ni etmək istəyən insanlar kimi ölkədə formalaşan "qara paltarlılar" hərəkatının formalaşdığını bildirib. Deyib ki, ölkəni qarışdırmaqda lokomotiv rolunu məhz həmin qüvvələr oynayacaqlar.

Paşinyan "hibrid müharibə" deyəndə birbaşa xarici mənbələri göstərməsə də, dolayısı ilə Kremli də bu qüvvələrə dəstək verməkdə ittiham edib və erməni mediasının yazdığına görə, onun narahat Peterburq səfərində də məqsədi Putinlə görüşüb bəzi məsələləri müzakirə etməkdir. Maraqlıdır ki, Paşinyan ölkəni qarışdırmaq istəyən qüvvələrə "qara paltarlılar" adını verir. Bu termin siyasəti və tarixi bilənlər üçün yaxşı tanışdır. Almaniyada və İtaliyada faşistlərin hakimiyyətə gəlməsində "qara köynəklilər" hərəkatı aktiv rol oynayıb. Paşinyanın açıqlamalarından bu qənaətə gəlmək olarmı ki, Ermənistanda faşizm baş qaldırır?

## *Mübariz Əhmədoğlu: "Hibrid müharibə"ni aparmaq üçün geyimlərdən deyil, texnologiyalardan çox istifadə edilir"*

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyan özünü açıqlamaları ilə gülməli vəziyyətə qoyub:** "Paşinyan hiss edir ki, ona qarşı narazılıqlar artır. O bilir ki, qısa müddətdə ona qarşı izdihamlı aksiyalar başlaya bilər. Çünki inqilab zamanı verdiyi heç bir vədinə əməl edə bilməyib. Xüsusi qara geyimə gəldikdə isə, mənə elə gəlir ki, bu fikir Paşinyanın ağlına qarabasmadan, hakimiyyəti itirmək qorxusundan gəlib. "Hibrid müharibə"ni aparmaq üçün geyimlərdən deyil, texnologiyalardan çox istifadə edilir. Bilir ki, ona qarşı aksiyaları təşkil edə biləcək vasitə sosial şəbəkələrdir. O, sadəcə, diqqəti "qara paltarlılara" yönəldir ki, əhali arasında vahimə yaransın. Avtomatik olaraq ağıllar faşizmin baş qaldırdığı dönəmə getsin. Əhali prosesə qoşulmasın, hakimiyyətin yanında olsun. Artıq Paşinyanın bu hərəkətinə psixoloji normal olmayan adamın açıqlaması kimi baxırlar. Bu gün səhər gətirib bir qara paltarlı kişini meydana uzadıblar.

Onun fotolarını sosial şəbəkələrdə paylaşıb, Paşinyanı ələ salıblar. Amma məsələnin başqa tərəfi də var. Artıq əhali görür ki, Paşinyan qara geyinənlərdən qorxur. Ona görə də həmin rəngdə geyinməyə üstünlük verəcəklər. Düşünmürəm ki, Paşinyana qarşı faşistlərin mübarizə metodlarından istifadə oluna bilər. Mənim təxminlərimə görə, Paşinyana qarşı narazılıq dalğası mitinqlərin təşkili ilə yekunlaşacaq. Onlarda hakimiyyət dəyişiklikləri çox vaxt mitinqlər vasitəsilə olur. Paşinyan bu dalğanın Rusiyadan gəldiyi qənaətindədir.

**Ona görə də həmin mesajı məhz Peterburqa səfəri ərəfəsində səsləndirdi. Paşinyan bununla demək istəyib ki, Rusiya orada hakimiyyəti dəyişmək üçün "hibrid müharibə" üsullarından istifadə etməyi düşünür. Bütün bunlar Paşinyan real hakimiyyəti itirmək kimi təhlükəni hiss etdiyindən özünü büruzə verir".**

***Məhəmmədəli QƏRİBLİ***

**2019-cu ilin birinci rübündə Ermənistana yatırılan birbaşa xarici investisiya axını 7,6 milyon dollar təşkil edib. Bu barədə Ermənistan Milli Statistika Komitəsi məlumat yayıb. Bu, keçən ilin analoji dövrü ilə müqayisədə dəfələrlə az olub. Belə ki, 2018-ci ilin ilk rübündə Ermənistana yatırılan birbaşa investisiyalar 83,6 milyon dollar təşkil edib.**

# Ermənistanda xarici investisiyaların kökü yavaş-yavaş kəsilir...



Cari ilin ilk rübündə ölkəyə ən çox xarici investisiya Rusiyadan qoyulub. Rusiyadan sonra bu ölkəyə xarici sərmayə qoyan əsas ölkələr isə İtaliya, Livan, Finlandiya, Kipr və Birləşmiş Ərəb Əmirliyidir.

Göründüyü kimi, Paşinyan hökumətinin ciddi səylərinə baxmayaraq, xarici sərmayə ölkədən qaçır. Yeri gəlmişkən onu da qeyd edək ki, bu günlərdə Ermənistanın Baş naziri Nikol Paşinyan bu ölkədə akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndələri ilə görüşüb. Paşinyan deyib ki, onların ən böyük problemi xarici investisiya ilə bağlıdır. Belə məlum olub ki, xarici sərmayədarlar ölkəyə investisiya qoymaqda maraqlı deyillər: "Biz ölkəmizdə xarici investisiyalar üçün ən cəlbedici şərait yaratmaq üçün əlimizdən gələni edirik".

## *Vüqar Bayramov: "Səbəblərdən biri ölkə iqtisadiyyatının kiçik və rentabellik səviyyəsinin aşağı olmasıdır"*

Eyni zamanda, Paşinyan onu da qeyd edib ki, müstəqil fəaliyyət göstərən məhkəmə sistemi olmadan bu məsələ tam həll olunmayacaq. Çünki hər hansı bir investor onun investisiyalarının, əmlakının təminatına zəmanət istəyir: "Lakin belə bir zəmanət yalnız müstəqil məhkəmə sistemi tərəfindən verilə bilər".

Maraqlıdır, bəs ekspertlər xarici investorların Ermənistana maraq göstərməməsini nə ilə əlaqələndirirlər?

**Sözügedən məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Vüqar Bayramov xarici investorların Ermənistana maraq göstərməməsini bir sıra amillərlə əlaqələndirdi.** Onun fikrincə, belə vəziyyət hələ bir neçə il davam edəcək: "Paşinyanın bir sıra cəhdlərinə rəğmən, xarici sərmayədarlar Ermənistan iqtisadiyyatına investisiya qoymaqda maraqlı deyillər.

*"Hansı tərəfdən baxsaq görərik ki, orada sərmayə mühiti əlverişli vəziyyətdə deyil"*

Səbəblərdən biri Ermənistan iqtisadiyyatının kiçik və rentabellik səviyyəsinin aşağı olmasıdır. Ermənistan iqtisadiyyatı regionda xarici investorlar üçün cəlbedici deyil.

Cəlbedici iqtisadiyyat olmadığına görə bu, investorların ölkə iqtisadiyyatına marağının artmasına gətirib çıxarmır. Baxmayaraq ki, Paşinyan bununla bağlı islahatların aparılacağını demişdi, amma hələlik ortada ciddi iş yoxdur.

**Başqa bir tərəfdən, Ermənistanda investisiya mühitinin yaxşılaşması zaman tələb edir. Hansı tərəfdən baxsaq görərik ki, orada sərmayə mühiti əlverişli vəziyyətdə deyil. Ona görə də yaxın illərdə Ermənistan iqtisadiyyatına xarici sərmayə qoyuluşunun artacağı gözlənilmir".**

***Vidadi ORDAHALLI***

# Dolların mövqeyi sarsılır - manat yeni şəraitlə üz-üzə...

**Dünya maliyyə sahəsində baş verənlər yaxın tezlikdə ABŞ dolları ilə bağlı tamamilə yeni vəziyyətin yaranacağını göstərir. Məsələ burasındadır ki, ABŞ-ın dollardan iqtisadi təzyiq aləti kimi istifadə etməsindən sonra Amerika valyutasına alternativlərin tapılması üzərində fəaliyyət genişlənir. Bu hal özünü iki məqam üzrə daha aydın surətdə göstərir.**

Belə ki, müxtəlif ölkələr artıq qarşılıqlı ticarətdə tədricən dollardan imtina edir. Avropa İttifaqına daxil olan ölkələr, eləcə də Çin, Rusiya, Türkiyə, İran, Hindistan, Venesuela və digərləri artıq tiacarətin müəyyən hissəsini milli valytalarda, yaxud da avro və yuanda həyata keçirir. Eyni zamanda bir çox ölkələr, xüsusən də Çin və Rusiya dollar ehtiyatını tədricən qızıla çevirir. Rusiya bu istiqamətdə daha genişmiqyaslı fəaliyyət göstərir.

Rəsmi Pekin də qlobal iqtisadiyyatdakı risqlərdən qaçmaq üçün maliyyə bazasını dollardan qızıla çevirir. Çin bu istiqamətdə təkcə cari ilin ötən dövründə 500 milyon dollarlıq qızıl alıb. Çin Dövlət Valyuta İdarəsi bildirib ki, ölkənin Mərkəzi Bankı 79 milyard dollar olan qızıl aktivlərini artıq 79 milyard 498 milyon dollara çatdırıb. Mütəxəssislər Çinin bu addımı ABŞ-la yaşanan ticari gərginliyə görə atdığını deyir. Vuhan Universiteti Maliyyə və Qiymətli kağızlar İnstitutunun müdiri Donq Denqksin qeyd edir ki, qlobal sistemdə hegemoniya qurmağa çalışan ABŞ-ın etibarlılığı azalır. Bunun nəticəsində bir çox dünya ölkələri maliyyə bazasını dollarla saxlamağa çəkinir. Buraya Yaponiya, Hindistan və Almaniya kimi ölkələr də daxildir. Bu arada isə Rusiya və Çin dollara qarşı daha bir addım atıb. Belə ki, Rusiya prezidenti Vladimir Putin və Çin Xalq Respublikasının sədri Si Szinpin ticarətdə milli valyutadan istifadəni daha da genişləndirmək məqsədi ilə müqavilə imzalayıblar. Vladimir Putin bu xüsusda bildirib: "Çinlə ikili ticarətdə rubl və yuandan istifadəni daha da genişləndirmək və dünya bazarında qeyri-sabitlik kontekstində bank xidmətlərinin davamlılığını təmin etmək məqsədilə hökumətlərarası müqavilə imzalamışıq". Digər tərəfdən, Rusiya neft və qazını dollarla yox, avro və yuanla satmağa hazır olduğunu bildirib. Artıq bu xüsusda Avropa ölkələri ilə danışıqlar gedir. Eyni zamanda, Rusiya enerji məhsullarının ödənişini rublla qəbul etməyə də hazır olduğunu bildirir. Yeri gəlmişkən qeyd edək ki, "Qazprom neft" Ermənistana neft məhsullarının rublla tədarükünə başlayıb. "Qazprom neft"in rəhbəri Aleksandr Dyukov bununla bağlı qeyd edib: "Bizim müqavilələr imkan verir ki, istənilən an yuan və ya avro ilə hesablaşmalara keçək. Biz bu ildən etibarən Ermənistana rublla neft məhsullarının tədarükünü başlatmışıq. Bizim planımız yaxın zamanlarda Avrasiya İttifaqı çərçivəsində rublla tədarükə keçməkdir". Xatırladaq ki, Rusiya Azərbaycanla da ticarətdə milli valyutadan istifadədə maraqlı olduğunu bəyan edib.

Ekspertlər hesab edir ki, Avropa İttifaqı, Çin, Rusiya, Hindistan, Türkiyə kimi böyük ölkələr və iqtisadi güc sahiblərinin dollara qarşı indiki fəaliyyəti davam edərsə, ABŞ valyutasının hegemonluğuna son qoyulması qaçılmaz olacaq. Əslində, dünya ticarətində dolların payının getdikcə azalması artıq bu prosesin başlandığını göstərir. Belə vəziyyətdə hesab edilir ki, Azərbaycan da, digər ölkələr kimi, bu gedişlə valyuta ehtiyatlarında dolların payını azaltmalı olacaq. Xatırladaq ki, ölkəmiz son dövrlərdə dollar ehtiyatının bir hissəsini qızıla çevirib və bu prosesin daha da genişlənməsi gözlənir. Digər tərəfdən, ABŞ iqtisadiyyatında baş verənlər, xüsusən də dolların kursundan istifadə edilməsi ilə başlanan valyuta savaşı da Amerika pulu üçün təhdidlərin artdığını göstərir. Bu hal artıq ABŞ-ın özündə də ciddi narahatlığa səbəb olub. ABŞ-ın ticarət naziri Uilbur Ross bu xüsusda deyib: "ABŞ dollara nisbətdə milli valyutasının dəyərini qəsdən aşağı salan ölkələrə əlavə rüsumlar tətbiq edə bilər. Xarici dövlətlər artıq pul siyasəti ilə amerikalı işçilərə və müəssisələrə zərər vura bilməyəcək". O əlavə edib ki, milli valyutanın məzənnəsi ilə manipulyasiya edən ölkələrin müəyyənləşdirilməsi üzrə meyarlar hazırlayacaqlar. Manat-dollar nisbətində son iki ildə yaranan vəziyyət fonunda bu hal ölkəmiz üçün də maraq doğurur. İqtisadçı-ekspert Vüqar Bayramov bildirir ki, burada söhbət valyuta səbətinə daxil olan valyutaların ABŞ dollarına nisbətən məzənnəsinin dəyişdirilməsindən gedir: "Azərbaycan manatı valyuta səbətinə daxil deyil. Manatın məzənnəsinin dəyişməsi ABŞ dollarının qlobal mövqeyinə təsir göstərmir. Azərbaycanla ABŞ arasındakı ticarət dövriyyəsi də böyük deyil. Bu baxımdan güman etmirəm ki, söhbət manata aid ola bilər. Daha çox aparıcı ölkələrin, xüsusən də avronun, yuanın, yenin məzənnəsinin ABŞ dollarına nisbətən dəyişməsindən söhbət gedir. Burada yanaşma ondan ibarətdir ki, məhz həmin valyutaların dollara nisbətən məzənnəsinin yumşalması ABŞ-ın həmin ölkələrə ixrac imkanlarının azalmasına və bu ölkələrdən ABŞ-a daha çox məhsulların ixrac edilməsinə gətirib çıxarır. Ona görə də ABŞ xarici ticarətdə mövqelərini qorumaq üçün bu addımı atır". Onun sözlərinə görə, bu baxımdan həmin qaydaların manata tətbiq edilməsi gözlənilmir: "Çünki nəticə etibarı ilə söhbət qlobal ticarətdə payı olan ölkələrlə münasibətlərdə valyuta məzənnəsinin dəyişməsindən gedir. Düşünürəm ki, bu, inkişaf etməkdə olan ölkələrə tətbiq edilən bir prosedur deyil. Əsas məqsəd ABŞ-ın qlobal bazarda rəqibi olan ölkələrlə münasibətdə bu qaydaların tətbiq edilməsidir. Bu addımlar atılarsa, ABŞ, xüsusən də qlobal rəqiblərinə qarşı, yeni sərt tədbirlər həyata keçirə bilər. Söhbət qlobal ticarətdə daha çox payı olan ölkələrdən gedir. O baxımdan Azərbaycana qarşı sərtləşdirici addımların atılması və manatın məzənnəsinin bu aspektdən qiymətləndiriləcəyi gözlənilmir".



**Ekspertin fikrincə, milli valyutanın sabit yox, bazar dəyərinin olması vacibdir: "Stabil valyutanın müsbət hal olması birmənalı qəbul olunmur. Çünki süni şəkildə milli valyuta stabil ola bilər, amma bu, iqtisadiyyat üçün müsbət hal kimi qiymətləndirilməyə bilər. Digər ölkələr ona görə milli valyutanın məzənnəsinin aşağı salınmasında maraqlıdır ki, bu onların ixrac imkanlarını artırır. Milli valyuta dollara nisbətən ucuz olursa, bu, həmin ölkənin ixrac imkanlarının artırılması və idxalın azalması anlamına gəlir. Həmin ölkələr milli valyutanı ucuzlaşdırmaqda ona görə maraqlı olur ki, ABŞ bazarına daha çox məhsul ixrac edə bilsin". İstənilən halda, baş verənlər valyuta savaşlarının artıq getdikcə qızışmaqda olduğunu göstərir və burada, bir çox valyutalardan fərqli olaraq, manatın sabit mövqedə qalması proqnozlaşdırılır.**

***Tahir TAĞIYEV***

# Ermənistanla qondarma "DQR" rejimi arasında ziddiyyətlər - Rusiya politoloqları "ayrılacaqlar" qənaətinə gəlir...

**Qarabağ separatçıları ilə Ermənistan hakimiyyəti arasında münasibətlərin getdikcə daha gərgin xarakter alması müşahidə olunmaqdadır. Əvvəlki dövrlərdən fərqli olaraq, indi tərəflər özləri əlaqələrin heç də normal olmadığını açıq etiraf edir. Məhz belə bir vaxtda Ermənistanın baş naziri Nikol Paşinyan yenidən Qarabağdakı rejimin ünvanına sərt ifadələr səsləndirib.**

Erməni mediası yazır ki, Paşinyan hakimiyyətə gələnə qədər separatçı rejim rəhbərliyinin Azərbaycanla Ermənistan arasındakı danışıqlar masasında nələrin müzakirə edildiyini bilmədiyini söyləyib. O, separatçı rejim rəhbərliyinə müzakirə sənədlərini məhz özünün verdiyini bildirib: "Onlardan beş dəfə soruşdum ki, danışıqların hansı istiqamətdə getdiyindən xəbərdardırlarmı? Onlar cavab verdilər ki, bunu bilmirlər. Qarabağın hazırkı "rəhbərliyi" Ermənistanın keçmiş rəhbərliyi ilə dostdur və hətta onlar bir yerdə rəqs edirlər, lakin bununla belə, keçmiş rəhbərlik Xankəndiyə danışıqlar prosesinin taleyi haqqında məlumat verməyib".

Bu arada separatçıların lideri Bako Saakyan Paşinyanı təkzib edərək qeyd edib ki, həm indi, həm də əvvəl Azərbaycanla danışıqlara qədər və danışıqlardan sonra Ermənistan rəhbərliyi Qarabağ separatçılarını müzakirə olunan məsələlər barədə məlumatlandırıb. Bu ziddiyyətin nədən yaranması barədə isə hələ də hansısa rəsmi açıqlamalar verilmir. Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan isə Ermənistan və Qarabağ separatçılarının rəhbərliyinin bir-birinə zidd bəyanatlarını şərh etməkdən imtina edib. Mnatsakanyan səsləndirilən bəyanatları yenidən öyrənməyə ehtiyac olduğunu əsas gətirərək, onları şərh etməkdən imtina edib. Lakin bildirib ki, həqiqətən də İrəvanda Qarabağ separatçıları arasında fikir ayrılığı hökm sürür: "Mən səhv etməməyi məsləhət görərdim. Bizim aramızda müəyyən məsələlər, fikir ayrılıqları, mübahisələr, çox şeylər var". Qarabağ rejiminin "təhlükəsizlik şurası"nın rəhbəri Vitali Balasanyan da eyni mövqedən çıxış edir. O vurğulayır ki, həqiqətən də Ermənistan və Qarabağ separatçıları arasında gərginlik var: "Müəyyən gərginlik var və bunu danmaq olmaz. Bu gərginliyi Ermənistandakı hakimiyyət yaradıb. Paşinyanın bitməyən itithamları gərginliyi daha da artırır".

Rusiyalı politoloq Qriqori Trofimçuk da qeyd edir ki, ermənilər arasında gərginliyin daha da artmasını gözləmək olar. Ekspert xatırladır ki, Paşinyan yaranmış durumda Qarabağ rejimini tənqid edərək, onları və keçmiş hökumət nümayəndələrini torpaqları Azərbaycana satmaqğa hazırlıqda ittiham edir: "Tərəflər arasında bu gərginlik İrəvandakı hökumətin Azərbaycanla aktiv danışıqlar apardığı dövrə təsadüf edir. Bəs, Paşinyan Qarabağ danışıqlarının aktivləşdiyi bir zamanda niyə belə addım atdı? Əslində, Qarabağ Paşinyanın son 25 ildə kollektiv danışıqlarla bağlı bütün səyləri ləğv etməyə başladığı əsas fəaliyyət istiqamətlərindən biridir. O elan edir ki, sülh qarşılığında ərazi mübadiləsinə getmir, amma əvvəldən



bu, konfliktin həlli prosesində əsas mahiyyəti təşkil edir. Digər tərəfdən, o deyir ki, Qarabağa heç bir aidiyyəti yoxdur, amma burada aktiv şəkildə "hakimiyyəti" dəyişməyə cəhd edir. Bütün bunlar Qarabağın İrəvandan ayrılmasına gətirib çıxaracaq. Paşinyan hər kəsi hər şeydə ittiham edir, ona görə də hansısa erməni siyasətçinin ünvanına onların guya Azərbaycana torpaq satmaları ilə bağlı ittihamlar artıq yeni xəbər deyil. Bu, ölkədə tezliklə daha sərt formaya keçəcək daxili siyasi mübarizənin bir hissəsidir".

Ekspertin fikrincə, Ermənistan baş naziri Qarabağdakı "hakimiyyət" dəyişikliyinə birbaşa təsir göstərsə, o zaman onun Qarabağın müstəqil, ayrı və suveren tərəf kimi danışıqlar masasında əyləşməsi ilə bağlı iddialar avtomatik olaraq qapanacaq: "Məncə, Azərbaycanın özü də bunu yaxşı anlayır. Bu, ən sadə və məntiqli əks-arqumentdir. Paşinyanın özü də "suveren Qarabağın" işlərinə müdaxiləsini xarici dünyadan gizlətmir, halbuki, əsl siyasətçi bunu birmənalı şəkildə gizlədərdi. Bu durumda Paşinyan üçün reytinqinin azalmasını dayandıra biləcək yeni layihələr düşünmək daha da çətinləşir. İndi bu məqsədə çatmaq üçün məhkəmələr hədəf götürülüb. Paşinyanın özü hakimiyyətə qeyri-konstitusion yolla gəlib, ona görə də özünün əsas baza problemini növbədənkənar parlament seçkisi keçirərək, maksimal şəkildə həll etməyə çalışdı. Bu o deməkdir ki, gələcəkdə kütlə onu da devirə bilər. Üstəlik, onun vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı hesabatı etibarsız görünür. Buna artıq daha çox insan əmin olmağa başlayır. Paşinyanın siyasi müxalifəti isə mövcuddur və özünü daha sərt şəkildə göstərməyə başlayıb. Paşinyan siyasətçi kimi zəifdir, bunu isə hər kəs görür və hiss edir. İstənilən halda, artıq aydındır ki, Paşinyan xalqa vəd etdiyini yerinə yetirə bilmədi. Ona görə də Rusiya üçün vacib olan artıq regionda, eləcə də Ermənistanın iştirak etdiyi bütün inteqrasiya və hərbi-siyasi strukturlar daxilində stabilliyin saxlanmasıdır.

Bu stabillik təhdid altına qoyulsa, o zaman Moskva, sözsüz ki, burada öz sözünü demək məcburiyyətində qalacaq. İstənilən halda isə Ermənistanda gərginliklər bitməyəcək. Bu gərginlik Nikol Paşinyanın hakimiyyətə gəlişi ilə başlayıb və mütəmadi olaraq inkişaf edir. Paşinyan əhalinin həyat səviyyəsini qaldıra, korrupsiya ilə mübarizə apara bilmir. Ona görə də o, korrupsiya ilə mübarizənin nəticəsinin olmamasına yeni bəhanə ilə haqq qazandırır. Yəni günahkar hakimlər və ümumilikdə məhkəmə sistemidir. Bundan sonra korrupsionerlərin valideynləri, sonra nənələri və babaları, daha sonra isə başqa kimsələr günahkar olacaq. Nəhayətdə xalq dəhşətli korrupsiyada Paşinyanın özünü və komandasını ittiham edəcək". Bütün bunlar daha qarşıdakı dövr ərzində Ermənistanı kifayət qədər gərgin günlərin gözlədiyini deməyə əsas verir.

***Nahid SALAYEV***

# ABŞ-dan S-400 sisteminə görə Türkiyəyə qarşı ilk "F-35" qadağası - türk pilotların təlimi dayandırıldı



**Rusiyadan alınan S-400 zenit-raket komplekslərinə görə Türkiyəni təhdid edən ABŞ beşinci nəsil "F-35" tipli qırıcıları ilə bağlı Ankaraya qarşı ilk qadağasını açıqlayıb.**

Baki-xeber.com xəbər verir ki, Birləşmiş Ştatlar Türkiyədən gələn və "F-35"lə bağlı təlim alan türk pilotların qəbulunu dayandırmaq barədə qərar qəbul edib.

**"Reuters" agentliyi iki fərqli mənbəyə istinadən, "F-35"ləri istifadəsi ilə bağlı türk pilotlara keçilməsi planlaşdırılan təlimlərin dayandırıldığını yazıb.**

Hazırda Arizonadakı Luke hərbi hava bazasında olan türk pilotların "F-35" təlimlərinin davam edəcəyini deyən mənbələr qərarın ABŞ-a gəlməsi planlaşdırılan yeni pilot və texniki xidmət personalına şamil ediləcəyini bildirib.

Bununla bağlı hələlik heç bir rəsmi açıqlama yoxdur. Ancaq ABŞ-dan olan iki rəsmi mənbə, Ankara öz planlarını dəyişərsə, rəsmi Vaşinqtonun da bu qərarını ləğv edə biləcəyini deyib.

Bu qərar Rusiyadan alınan S-400 zenit-raket komplekslərinə görə ABŞ və Türkiyə arasında münasibətlərin pozulması ilə bağlı verilib.

Rəsmi Vaşinqton Türkiyənin Rusiyadan aldığı "S-400" hava hücumundan müdafiə zenit raket komplekslərinin "F-35" qırıcıları üçün təhlükə yaradacağını düşünür.

**ABŞ prezidenti Donald Tramp və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan G-20 sammiti çərçivəsində Yaponiyanın Osaka şəhərində 28-29 iyun tarixlərində bir araya gələcək. Bu görüş ərəfəsində ABŞ-ın "F-35" təlimi qadağası diqqət çəkir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Bakı və Ankaradan qeyri-konstruktiv İrəvana yeni hərbi mesajlar - qısa vaxtda 4 birgə təlim...

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Azərbaycan və Türkiyə arasında, digər sahələrlə yanaşı, hərbi müstəvidə də əlaqələrin intensiv inkişafı işğalçı Ermənistanda getdikcə daha böyük təşviş yaradır. Xüsusən də son dövrlərdə iki qardaş ölkənin intensivləşən hərbi təlimləri düşməndə çox ciddi qorxuya səbəb olub. Ermənistanda belə hesab edirlər ki, təlimlərin məqsədi İrəvana, Dağlıq Qarabağ münaqişəsi hərbi yolla həll olunacağı təqdirdə, Türkiyənin də Azərbaycanın yanında yer alacağına dair açıq mesaj verməkdir.**

Qeyd edək ki, əslində, Ermənistanın belə qorxuya düşməsi heç də əbəs deyil. Xüsusən də son bir ay ərzində keçirilən Azərbaycan-Türkiyə hərbi təlimləri iki qardaş ölkənin hərbi əlaqələrinin daha effepktiv şəkildə koordinasiya edilməsinə hərtərəfli şərait yaradır. Xatırladaq ki, indilikdə iki ölkənin Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimi keçirilir. Təlimlər iyunun 11-dək davam edəcək. Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikanın güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələrinin iştirakı ilə keçirilən təlimə 5000-ə qədər şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və hərbi texnika nümunələri cəlb olunub. Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və onların birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır. Bundan əvvəl isə ötən ayın əvvəlində ölkəmizdə "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə döyüş atışlı birgə taktiki təlimi keçirilib. Ardınca növbəti birgə hərbi təlim "Anadolu Ankası-2019" adı altında mayın 20-24 arasında Türkiyənin Konya vilayətində baş tutub. Bütün bunlara nəzər salan Rusiyanın "regnum.ru" portalı da yazır ki, təlimlərdən İrəvanın ciddi narahatlıq keçirməsi, əslində təbii qarşılanmalıdır: "İyunun 7-dən 11-dək Naxçıvanda Azərbaycan-Türkiyə "Sarsılmaz qardaşlıq-2019" birgə taktiki təlimlərinin döyüş atışı ilə son mərhələsi keçiriləcək. Ümumiyyətlə, Naxçıvan ərazisində belə hərbi təlimlər ilk dəfə keçirilmir. Sadəcə, bu dəfə Azərbaycanın keçirdiyi silsilə hərbi təlimlər kontekstinə sığır. Bu, təkcə bu ildə dördüncü təlimdir. Üçüncüsü mayın 20-24-də, amma Azərbaycanın daxili ərazisində keçirilib. Durumun başlıca özəlliyi də məhz bundan ibarətdir. Daxili ərazidə keçirilən təlimlər, əlbəttə, təkcə Ermənistana ünvanlanıb, Dağlıq Qarabağ münaqişəsini güc vasitələrilə həll etmək imkanlarını sərgiləməkdir.

Bəs Azərbaycandan uzaq düşmüş Naxçıvandakı hərbi təlimlər nəyi və kimə sərgiləyir? Azərbaycanın bir çox hərbi eksperti bununla bağlı iddia edir ki, Ermənistanla savaş başlayacağı halda Naxçıvan bu ölkəyə zərbə endirmək üçün ən uyğun əməliyyat meydanıdır. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində istənilən variantda Zəngəzur üzərindən Türkiyə və Naxçıvana çıxışı saxlamaq planlarını çoxdan fikrində tutub. İndi Azərbaycan və Naxçıvan arasında ümumi sərhəd yoxdur. 1921-ci il 16 mart tarixli Moskva Rusiya-Türkiyə sazişinin 3-cü maddəsinə görə, Naxçıvan muxtar ərazi hüququnda Azərbaycan SSR-in tərkibinə daxil edilib. Bu maddə özəlliklə bildirir: "Razılaşmaya gələn hər iki tərəf yekdildir ki, Naxçıvan vilayəti indiki sazişin əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın bu protektoratı heç bir üçüncü dövlətə güzəştə getməyəcəyi şərtilə Azərbaycanın himayəsi altında muxtar ərazi formalaşdırır". Bu sazişi hələlik heç kim ləğv etməyib. Bax, Qarabağ problemi buna görə məhəlli səciyyədən çoxdan çıxıb. Əks halda, onu artıq çoxdan həll etmişdilər. İndi bu problem beynəlmiləl olub, bütün əlamətlərə görə, hər halda, aralıq mərhələ olan ATƏT Minsk Qrupu formasında vasitəçilik missiyası var. Yeni Bakının Qarabağ yönündə fəaliyyətini ATƏT MQ tərəfindən, Naxçıvan yönündə 1921-ci il 16 mart tarixli Moskva Rusiya-Türkiyə sazişinin maddələrilə bloklanır. Belə bir konstruksiyanın qırılması bölgə üçün ən gözlənilməz nəticələrlə ciddi sarsıntılar törədər. Bax, Azərbaycan və Türkiyənin Naxçıvanda növbəti hərbi təlimləri buna görə qarışıq duyğularla qarşılanır".

Rusiyanın "rosbalt.ru" portalı da qeyd edir ki, Qarabağ danışıqlarında dalana dirənmiş vəziyyətin yaranması bu konfliktin güc müstəvisində çözülmə ehtimalını artırır. Elə bu səbəbdən Azərbaycan və Türkiyə hərbi təlimləri də Ermənistan üçün ciddi siqnal sayılır: "Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi dayanıb. Tərəflər bir-birini qarşılıqlı təxribatda ittiham edir. Qarabağ münaqişəsi zonasında nisbi sükutdan sonra son bir həftədə atəşkəs rejimi yüz dəfələrlə pozulub. Azərbaycan Müdafiə Nazirliyinin bəyan etdiyi kimi, özü də cəbhə xəttinin ən müxtəlif yönlərindən Ermənistan silahlı qüvvələri tərəfindən iriçaplı pulemyotlardan istifadə edilməklə.

Erməni tərəfindən snayper atəşi nəticəsində Azərbaycan ordusunun zabiti Aqil Ömərov həlak olub. Bir sözlə, münaqişəli zonadakı kövrək tarazlıq pozulub və səciyyəvidir ki, ATƏT-in Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə Minsk Qrupu həmsədrlərinin İrəvan, Bakı və Xankəndi səfəri zamanı durum gərginləşməyə başlayıb. Onların Azərbaycan prezidenti İlham Əliyev, Ermənistan baş naziri Nikol Paşainyan, separatçıların lideri Bako Saakyanla görüşləri olub. Bu görüşlər haqda rəsmi məlumat heç nə deməməyə bərabərdir: "Qarabağ münaqişəsinin tənzimlənməsi və təmas xəttindəki durum məsələsi müzakirə olunub".

Azərbaycan XİN-də bu fikrə tərəfdardırlar ki, ATƏT Minsk Qrupunun bölgəyə səfəri zamanı Azərbaycan əsgərinin öldürülməsi tənzimləmə üzrə danışıqları pozmaq qəsdilə "fitnəkarlıq xarakteri daşıyır". Bu arada Azərbaycan və Ermənistan xarici siyasət idarələri başçılarının görüşünün hazırlandığı haqda məlumat yayılsa da, görünür ki, canlanmış danışıqlar prosesi ölgünləşməyə başlayıb. Amma "Sputnik"in siyasi icmalçısı Arman Vaneskeqyanın yazdığı kimi, Minsk Qrupunun həmsədrləri İrəvanda, Bakıda və Xankəndidə danışıqlar zamanı iki respublikanın XİN başçılarının Vaşinqtonda görüşü mövzusundan "ciddi-cəhdlə yan keçiblər", amma əvvəllər dünyanın məhz bu paytaxtının adı çəkilib.

O da bəlli olub ki, ABŞ-ın Ermənistandakı səfiri Linn Treysinin nazirlərin Amerika torpağında görüşünə dair hər hansı barədə məlumatı yoxdur. Erməni icmalçının "Amerika diplomatiyasının özü üçün daha mühüm məsələlərlə məşğul olduğu təəssüratı yarandığı" haqda müşahidəsi olmasaydı, bütün bu coğrafi detallar önəmli olmazdı. Özəlliklə, İranla qarşıdurma, Fələstin-İsrail münaqişəsi, Rusiya və Türkiyə arasında S-400 reaetlərinin alqı-satqısı və sair. Ümumiyyətlə, "böyük siyasətin arxa bağçası", yəni Qarabağ ən yaxın vaxtlarda Vaşinqtonun gözündə olmayacaq ki, bir məqam olmasaydı, bu da ideyaca faciəli olmamalıdır: ABŞ təmsilçisi Rusiyanınkı kimi Minsk Qrupunun həmsədridir və iki ölkənin Qarabağ tənzimlənməsinə yanaşımı heç də həmişə üst-üstə düşmür. Amma danışıqlar - bu isə amerikalılar tərəfindən hətta Ermənistan və Azərbaycan başçıları səviyyəsində planlaşdırılmışdı - cəbhə xəttində nəfəs dərmək imkanı və heç olmasa, əhatəli hərbi əməliyyatların təzələnməməsinə hansısa zəmanət verir. Amerikalılar Qarabağ tənzimləməsinə münasibətdə taktika və strategiyanı dəyişiblərsə, ya da əksinə, özlərini bundan bir qədər qırağa çəkiblərsə, onda Rusiyanın bu məsələdə inadlı təşəbbüsünü gözləmək məntiqlidir. Amma o ləngiyir. Nədən? Və təkcə Rusiya deyil, həm də başqa həmsədrlər münaqişə zonasında əhatəli hərbi əməliyyatların başlandığını gözlədikləri, Moskvanın "söndürməli olduğu" 2016-cı ilin aprelinə oxşar durum təkrarlanmazmı? O, üç ildə bundan ciddi siyasi xal toplayıb.

Danışıqlar prosesinin irəliləməyini ləngidən daha bir məqam var - Qarabağdakı separatçı rejim və Ermənistan arasında münasibətlər korlanmağa başlayıb: hesab olunur ki, Ermənistanın qabaqı rejiminin - respublikanın iki keçmiş prezidenti Robert Köçəryan və Serj Sarksyanın tərəfdarları Xankəndidə "səngər tutub". Onlar "Qarabağ klanı" deyilən qrupun təmsilçiləri sayılır. İrəvanda praktik olaraq açıq danışırlar ki, "əks-inqilabçıların bu yuvasını" aradan qaldırmaq gərəkdir. Belə ki, Dağlıq Qarabağ, demək olar, inqilabi gözləntilər rejimində yaşayır. Və mübahisələrə: DQR-in "müstəqil" respublika kimi qalması lazımdır, yoxsa Ermənistanın tərkibinə "daxil olmalıdır"? Nə bu, nə o biri variant nə bir il qabaq Ermənistandakı inqilabi qarışıqlıqdan, nə də İrəvan və Xankəndi arasındakı didişmələrdən yararlanan Azərbaycanı qane edə bilər. Bakı, dövlətin yeni başçısı kimi nəticədə bir müddət gözədəyən şəkildə fəallaşan danışıqlar prosesinin tarixi ilə tanışlıq üçün Paşinyana vaxt verdi. Burada yaranan fasilə və hər iki tərəfdən adamların həlakı isə artıq durumun nəzarətdən çıxa biləcəyindən xəbər verir. Bu, Ermənistana nə verər? Yaxşı heç nə - ancaq insan qurbanı, yoxsulluq, işsizlik və əhalinin ölkədən getməsi səviyyəsinin daha da artması.

Əlbəttə, Azərbaycan da insan itkiləri risqinə gedər, amma o,sosial-iqtisadi, maliyyə planında, habelə silahlı qüvvələrin gücü və insan resursları kontekstində Ermənistanı nəzərəçarpan şəkildə keçib. Üstəgəl, Türkiyə də açıq şəkildə Azərbaycanın yanında yer alacağını birgə hərbi təlimlər vasitəsilə Ermənistana çatdırır. Ümumiyyətlə, indi danışıqlar prosesi üçün fon əlverişsizdir: belə çıxır ki, son məlumatlara əsasən, praktikada bəsit "gözə göz, dişə diş" müddəasının gerçəkləşməsilə işimiz var. Və bunun qızışdırıcı "reseptorları" vaxtında dayanmaya bilər". Bütün bu qeyd edilənlərdən aydın olur ki, yaxın tezlikdə Qarabağ danışıqlarında hansısa ciddi nəticə əldə olmasa, istənilən an genişmiqyaslı savaş başlana bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Turist kart əlində POS-terminal axtarır - 13 min POS-terminal işləmir...

**Mağazalarda POS-terminalların olmaması, yaxud işlək vəziyyətdə olmaması ilə bağlı mediada məlumatlar yayılır. Hətta vergilər nazirinin müavini Sahib Ələkbərov da ötən həftə jurnalistlərə açıqlamasında bu problemi dilə gətirib. O qeyd edib ki, Azərbaycanda fəaliyyət göstərən POS-terminalların sayı azalaraq, 80 mindən 67 minə düşüb.**



## *Fikrət Yusifov: "Ticarət və xidmət obyektlərində POS-terminalların azlığı və ya işləməməsi vətəndaşlarımızın da vaxt itkisinə səbəb olur"*

Nazir müavini bildirib ki, ölkəmizə gələn turistlərin sayı artır. Ancaq onlar POS-terminalları görməyəndə pul xərcləyə bilmirlər. Biz artıq beynəlxalq tədbirlər keçirən ölkəyik. Nə üçün bu problemlər olmalıdır? Bu çatışmazlığı qısa müddətdə həll etməliyik.

Danılmaz faktdır ki, son illər istirahət üçün ölkəmizi seçən turistlərin sayı günü-gündən artır. Təbii ki, turistlər istirahət etmək üçün istər otellərdə, istirahət mərkəzlərində və ya dükanlarda pul xərcləmək məqsədilə kartdan istifadə edirlər. Ancaq bəzi dükan və ya istirahət mərkəzlərində POS-terminalların işlək vəziyyətdə olmaması turistlərin pul xərcləməsinə əngəl olur.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, nağdsız hesablaşmalar haqqında 2016-ci ilin sonlarında qəbul edilmiş qanunun icrası aidiyyəti qurumlardan bu sahədə daha çevik addımlar atmağı tələb edir:** "Bu gün ölkənin ticarət və xidmət obyektlərində POS-terminalların tətbiqi dairəsi o qədər də geniş deyil. Bir çox ticarət obyektində, məsələn, Lökbatan ərazisində yerləşən minlərlə ticarət obyektində ticarətlə məşğul olan insanların böyük əksəriyyətinin POS-terminal haqqında təsəvvürü belə yoxdur. Belə nəhəng bazarlara xaricdən, xüsusilə də vaxtilə bir məkanda olduğumuz ölkələrdən çoxlu alıcı gəlir. POS-terminalların olmaması belə obyektlərdə ticarət dövriyyəsinin real həcmini müəyyənləşdirməkdə də çətinliklər yaradır və deməli, vergidən yayınma hallarına yaxşı zəmin yaranır. Bu sahədə xidmət obyektlərində, ictimai iaşə müəssisələrində nağdsız hesablaşmaların aparıla bilməməsi ilk növbədə xarici vətəndaşlar üçün problem yaradır. Öz ölkələrində əksər ödənişləri nağsız qaydada həyata keçirən insanlar bura turist kimi və ya bir başqa qisimdə gələndə istədikləri əməliyyatları nağsız qayda da həyata keçirə bilməməkdən rahatsız olurlar. Onlar hər hansı bir əməliyyatı aparmaq üçün əlavə vaxt itirmək məcburiyyətində qalırlar. Bu baxımdan, ölkədə rəqəmsallaşma proseslərinin sürətlənməsinə dair qərarların sürətli icrası mühüm əhəmiyyət kəsb edir. Turizmin inkişaf perspektivləri böyük olan ölkəmizdə turistlər üçün bu sahədə normal şəraitin yaradılması olduqca vacib məsələdir. Bu gün ticarət və xidmət obyektlərində POS-terminalların azlığı və ya işləməməsi vətəndaşlarımızın da vaxt itkisinə səbəb olur. Bu məsələdə dönüş yarada biləcək qətiyyətli addımlar atmağın vaxtı çatıb".

*"Lökbatan ərazisində yerləşən minlərlə ticarət obyektində ticarətlə məşğul olan insanların böyük əksəriyyətinin POS-terminal haqqında təsəvvürü belə yoxdur"*

***Günel CƏLİLOVA***

# Orfoqrafiya lüğətinin çapı gecikir, yeni mübahisələr var...

**Uzun müddətdir cəmiyyətin müxtəlif təbəqələri tərəfindən müzakirə edilən Azərbaycan dilinin yeni orfoqrafiya lüğəti hələ də nəşr edilməyib. Orfoqrafiya lüğətinin artıq çapa hazır olduğu bildirilsə də, yayılan məlumata görə, lüğətlə bağlı xeyli problem var.**



## *Möhsün Nağısoylu: "Bizə təkliflər gəlir ki, "əməkhaqqı" bitişik yazılırsa, onda "gedişhaqqı", "təhsilhaqqı" sözləri də bitişik yazılsın"*

Məlum olduğu kimi, bir sıra mütəxəssislər çapa hazırlanan Azərbaycan dilinin orfoqrafiya lüğətində bir sıra sözlərin yazılışında mövcud olan qüsurların aradan qaldırılmadığını qeyd edirlər. Onlar bildirirlər ki, yeni lüğətdə bəzi sözlər var ki, onların yazılışı düzgün qeyd edilməyib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylu mətbuata açıqlamasında bildirib ki, Azərbaycan dilinin yeni orfoqrafiya lüğətinə daxil edilməsi nəzərdə tutulan bəzi sözlərlə bağlı mübahisəli məqamlar ortaya çıxdığı üçün, kitabın çapa verilməsi ləngiyəcək. O, həmçinin, qeyd edib ki, hazırda həmin mübahisəli sözlərlə bağlı müzakirələr aparılır.

**Akademik Möhsün Nağısoylu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bir sıra mürəkkəb sözlərin yazılışı ilə bağlı müəyyən problemlər yaranıb.** O qeyd etdi ki, bəzi sözlərin yazılışı mübahisəlidir və həmin sözlərə yenidən baxılır.

M.Nağısoylunun sözlərinə görə, mübahisəli sözlərin arasında həm lüğətə yeni daxil olan, həm də lüğətin 2013-cü il nəşrində olan və tənqidə səbəb olan sözlər var ki, onlara dair qüsurların aradan qaldırılması vacibdir. Bu səbəbdən bəzi sözlərlə bağlı dəqiqləşdirmələrin aparılmasına ehtiyac duyulduğunu deyən M.Nağısoylunun bildirdiyinə görə, hazırda kitabın üzərində iş gedir və sentyabrda nəşr ediləcək.

"Biz hazırda o mübahisəli sözləri müzakirə edirik. Konkret olaraq o sözlərdən birini demək istəyirəm. Məsələn, əməkhaqqı sözü, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin 2004-cü və 2013-cü illərdəki buraxılışlarında da bitişik yazılıb. Bu, əvvəlki lüğətlərdə yoxdur. Bizə təkliflər gəlir ki, "əməkhaqqı" bitişik yazılırsa, onda "gedişhaqqı", "təhsilhaqqı" sözləri də bitişik yazılsın. Biz belə məsələlərə fərdi baxacayıq. Yazılışı mübahisəli olan bu cür sözlər çoxdur. Biz də dedik ki, bir az gec olsun, amma ortaya keyfiyyətli iş çıxsın ki, nöqsan olmasın. Ona görə də kitabı sentyabrda təhvil verəcəyik" - deyə M.Nağısoylu qeyd etdi ki, ictimai müzakirəyə Azərbaycan dilinin qaydaları çıxarılsa da, sözlərin yazılışı çıxarılmamışdı. "Bu qəbildən olan bəzi sözlər var ki, onları müzakirə edib yazılışı ilə bağlı ortaq məxrəcə gələcəyik" - deyə M.Nağısoylu bildirdi.

*"Bəzi sözlər var ki, onları müzakirə edib yazılışı ilə bağlı ortaq məxrəcə gələcəyik"*

*"Yazılışı mübahisəli olan bu cür sözlər çoxdur"*

Qeyd edək ki, Azərbaycan dilinin son orfoqrafiya lüğəti 2013-cü ildə çap edilib. Həmin dövrdən keçən 6 il ərzində dilimizə daxil olan 4000 yeni söz cəmlənərək yeni lüğətə daxil edilib. Ümumilikdə, yeni lüğətdə 112 minə yaxın söz var.

**Bu il Nazirlər Kabineti tərəfindən Azərbaycan dilinin yeni orfoqrafiya normaları təsdiqləndikdən sonra yeni lüğətin hazırlanması və çap edilməsi zərurəti yaranıb.**

***İradə SARIYEVA***

# Uşaqlar üçün tədbir adı ilə bilet satdıran "Cəlil MMC" barədə iddialar...

**Son vaxtlar xeyriyyə məqsədilə tədbirlərin keçirilməsi adı ilə insanların aldadılması prosesinə tez-tez rast gəlinir. Bakıda növbəti belə addım "Cəlil MMC" adı ilə atılıb. Qəzetimizə müraciət edən jurnalist Yasəmən Möhübbətqızı həmin MMC-nin əməlindən zərər çəkdiyini bildirir.**



Şikayətçinin sözlərinə görə, guya xəstə bir uşağa yardım kampaniyası adı ilə şənliyin keçiriləcəyi, bilet alan uşaqlara xüsusi hədiyyələrin veriləcəyi vəd edilirdi: "Bütün bu işlər "Cəlil MMC" adlı qurumun adı ilə görülürdü. Hətta biletlərin üzərində həmin MMC-nin möhürü də var. Ancaq "layihəyə" rəhbərlik edən şəxsin adı Çimnaz olub. Biz bütün danışıqları onunla aparmışıq. Sonra Çimnaz bizə dedi ki, gedin MMC-nin rəhbəri Tahirə xanımla əlaqə saxlayın.

Biz araşdırdıqda məlum oldu ki, sözügedən MMC-nin rəhbəri doğrudan da Tahirə adlı xanımdır. Ancaq onunla əlaqə saxlamaq qeyri-mümkündür. Şəxsən mən Çimnazdan 60 bilet götürdüm ki, xəstə uşaq kampaniyasına yardım edim. Hər biletə 8 manat ödəmişik. Qızımın köməkliyi ilə həmin biletləri satdırdıq. Xeyriyyə konsertinin metronun "Xalqlar dostluğu" stansiyasına yaxın ərazidə yerləşən "Sərhədçi" idman kompleksində baş tutacağı gözlənilirdi. Nəzərdə tutulan saatda bizə zənglər gəlməyə başladı ki, burada heç bir konsert yoxdur. Mən hadisə yerinə getdim.

Gördüm ki, dələduzluq faktı ilə üz-üzəyik. Sonra məlum oldu ki, mənimlə yanaşı, bir çox məktəb direktoru, valideynlər də bu şəbəkənin fırıldağının qurbanı olub. Mən məcbur qalıb bir qrup valideynin pulunu cibimdən ödədim. Çimnazdan cəmi 50 manat ala bildim. Deyir ki, qoy gedib hara istəyirlər müraciət etsinlər, heç nə edə bilməzlər. İndi də bizim zənglərimizə cavab vermirlər. Çox xahiş edirəm, məsələni ictimailəşdirin ki, zərərçəkənlər onlardan pullarını ala bilsinlər".

Biz Yasəmən xanımın təqdim etdiyi telefon nömrələri ilə əlaqə saxladıq. MMC-nin direktoru kimi adı qeyd edilən Tahirə adlı xanımın telefonuna gün ərzində zəng çatmadı. Çox güman ki, şikayətçilərdən gizlənmək üçün köhnə nömrəsindən imtina edib. Layihəyə rəhbərlik edən Çimnaz adlı xanım isə zəngimizə cavab verdi. Sualı eşidən kimi dedi ki, nə marağınız var bunu yazmaqda: "İndi rayonda yas yerindəyəm, səhər gəlim görüşək, məsələni aydınlaşdıraq". Biz aydınlaşdırmanı telefonla apardığımız üçün, xanıma bir neçə sualımıza cavab verməyi xahiş etdik. Çimnaz xanım əvvəl şikayətin kim tərəfindən edildiyini soruşdu. Bunu bildən sonra qeyri-rabitəli fikirlər səләndirməyə başladı: "Deyəsən onlar başlarına problem açmaq istəyirlər. "Cəlil" MMC bəyəm bilet satır? Yalandır".

Biz deyəndə ki, satılan biletlərin üzərində həmin MMC-nin möhürü var, xanım sözünü dəyişdi: "Zəng vurun Tahirə xanımdan soruşun. Mənim o məsələyə heç bir aidiyyətim yoxdur. Axı bu hadisə çoxdan olub. İndi niyə şikayət edirlər? Soyadımı bilməyə sizin heç bir hüququnuz yoxdur. Bir də bu məsələ ilə bağlı məni narahat etməyin".

**Hər halda, bizə edilən şikayət əsasında aparılan araşdırma nəticəsində bu "layihəyə" cavabdeh olan şəxslərin keçirdiyi narahatlıq və sonra məsuliyyətdən boyun qaçırmaq üçün etdiyi müxtəlif manevrlər ortada böyük bir dələduzluq əməlinin olduğuna şübhə yeri qoymur. Yaxşı olardı ki, əlaqədar hüquq-mühafizə orqanları bu məsələni ciddi araşdırsınlar.**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Dayanacaqları zəbt edən avtobuslarla mübarizənin yeni qaydası təklif edilir

**Böyük şəhərdə nəqliyyat problemləri ilə, demək olar ki, hər bir sakin üzləşir. İnsan A nöqtəsindən B nöqtəsinə hərəkət üçün ya şəxsi nəqliyyatdan - avtomobil, velosiped, ya ictimai nəqliyyatdan istifadə edir, ya da təyinat nöqtəsinə piyada yollanır. İstənilən məkana çatmaq üçün insan bir neçə dəqiqə olsa belə tıxacda qalmalı olur.**




## *Azər Allahverənov: "Avtodayanacaqların sivil qaydada idarə olunması üçün əsasnamə hazırlanmalıdır"*

Tıxacların yaranması səbəblərindən biri avtomobil dayanacaqları ilə bağlıdır. Avtodayanacaqlarda nəqliyyat vasitələrinin nizamsız saxlanması tıxacın yaranmasına səbəb olur.

Avtomobil dayanacağı ilə bağlı əsasnamənin hazırlanması təklif olunur. Belə bir təklif bu günlərdə Milli Məclisdə səsləndirilib. Milli Məclisin Regional siyasət komitəsinin sədri Arif Rəhimzadə çıxışı zamanı qeyd edib ki, dayanacaqlarla bağlı əsasnamə olmalıdır. O, Bakının Nizami rayonunda yerləşən parkın yolunun şlaqbaumla kəsilməsindən şikayətlənib: "8-ci km. qəsəbəsində I vitse-prezidentin tapşırığı ilə park salınıb. Amma kimsə avtomobillərin ora keçməməsi üçün şlaqbaum qoyub. Bu məsələdən bələdiyyələrin xəbəri var?!

Yəqin ki, orada yaşayanlar, avtomobilləri varsa, kart almalıdır. Tutaq ki, birinin ağır yükü var, taksi ilə gəlmək istəyir, bu zaman necə olacaq? Yaxud təcili tibbi yardım maşını lazım olsa, bu məsələ necə tənzimlənəcək? Ümumiyyətlə, bu dayanacaqların bir əsasnaməsi olmalıdır".

**Avtomobil dayanacağı ilə bağlı əsasnamənin hazırlanmasının əhəmiyyəti barəsində danışan nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, avtodayanacaqlarla bağlı əsasnamənin hazırlanması olduqca vacib məsələdir:** "Əsasnamə hazırlanmazdan öncə xüsusi normativlər müəyyən olunmalıdır. Yalnız "Yol hərəkəti haqqında" Qanunda avtodayanacaqlarla bağlı xırda bir element qeyd olunub".

*"Şirkət avtobuslarının parklanması üçün xüsusi məkan müəyyən olunmayıb"*

Həmsöhbətimizin sözlərinə görə, bu gün bir sıra özəl şirkətlər tərəfindən avtodayanacaqlar yaradılıb. Avtodayanacaqların sivil qaydada idarə olunması üçün əsasnamə hazırlanmalıdır: "Əsasnamə hazırlanmaqla yanaşı, orada qeyd olunan müddəaların icra mexanizmi aydın şəkildə göstərilməlidir.

Bu gün avtodayanacaqların avtobuslar tərəfindən zəbt olunması hələ də problem olaraq qalır. Dayanacaqda dayanan daşıyıcı iki-üç avtomobilin yerini tutaraq həmin ərazidə sıxlıq yaradır. Ancaq bir məsələni də nəzərə almaq lazımdır ki, şirkət avtobuslarının parklanması üçün məkan müəyyən olunmayıb. Həmin daşıyıcılar məcbur olub avtodayanacaqlarda dayanır və beləliklə o ərazidə uzun-uzadı tıxac əmələ gəlir".

A.Allahverənov onu da əlavə etdi ki, sərnişindaşıma ilə 40-a yaxın şirkət məşğul olur. Daşıyıcı şirkətlərin yalnız 10-nun texniki bazası var.

Qalan 30 şirkət isə maddi-texniki bazaya malik deyil: "Bu halda həmin şirkətin daşıyıcıları ya yol qırağında, ya da avtodayanacaqlarda dayanırlar. Bu kimi problemlərin həll olunması üçün avtomobil dayanacağı barədə əsasnamə hazırlanmalıdır".

*Günel* **CƏLİLOVA**

# Gömrük Komitəsi Şahbaz Xuduoğluna arqumentlərlə etiraz etdi

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, bu günlərdə "Qanun Nəşrlər Evi" nin direktoru Şahbaz Xuduoğlu "facebook" sosial şəbəkəsindəki şəxsi səhifəsində gömrük orqanlarına qarşı qərəz və böhtan dolu paylaşım edib və hər zaman olduğu kimi, bir sıra kütləvi informasiya vasitələri də qarşı tərəfin mövqeyini öyrənməyə ehtiyac duymadan həmin paylaşımı yayımlayıb.**




Paylaşımdan məlum olur ki, adıçəkilən şəxs ölkə ərazisinə kommersiya məqsədilə mal gətirib və gətirdiyi mala dair gömrük orqanına əvvəlcədən qısa idxal bəyannaməsi təqdim etmədiyi üçün qanunvericiliyə əsasən inzibati qaydada cərimə olunub. Elə bundan yola çıxaraq, bu il fevralın 1-dən tətbiq edilən qısa idxal bəyannaməsinin hüququ əsaslarına, faydalılığına və səmərəliliyinə şübhə ilə yanaşıb, hətta beynəlxalq praktikada inkişaf etmiş ölkələr tərəfindən geniş surətdə tətbiq edilən yeniliyi "pul yığmaq üçün bürokratik uydurmaya hüquqi don geydirmək" kimi qiymətləndirib. İlk növbədə, müəllifin "pul yığmaq üçün bürokratik uydurma" adlandırdığı qısa idxal bəyannaməsinin məqsədi, hədəfi və təyinatı barədə qısa açıqlamaya ehtiyac var.

Gömrük ərazisinə gətirilən mal və nəqliyyat vasitələri barədə məlumatların əvvəlcədən gömrük orqanlarına təqdim edilməsi beynəlxalq təcrübədə qəbul edilib və müvafiq beynəlxalq sənədlərdə gömrük işinin səmərəliliyinin artırılması, ticarət-təchizat zəncirində təhlükəsizliyin təmin edilməsi üçün əsas vasitələrdən biri kimi müəyyən olunub.

Mal və nəqliyyat vasitələri barədə əvvəlcədən təqdim edilmiş məlumatlar risqlərin idarə edilməsi və təhlili sisteminin səmərəli şəkildə tətbiqinə imkan verir ki, bu da beynəlxalq ticarətdə sərhəd keçidi əməliyyatları zamanı gömrük nəzarəti formalarının seçmə üsulu ilə həyata keçirilməsi və gömrük-sərhəd buraxılış məntəqələrindən mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsinə şərait yaradır. Xüsusilə vurğulanmalıdır ki, məlumatların əvvəlcədən təqdim edilməsi gömrük ərazisinə gətirilməsi nəzərdə tutulan malların risq dərəcələrinin müəyyən olunmasına, sərhəd keçidi zamanı müvafiq dəhlizin əvvəlcədən seçilməsinə şərait yaradır ki, bu da gömrük nəzarətinin daha çevik və şəffaf formada həyata keçirilməsi, resurslardan daha səmərəli istifadəyə imkan verir. Yəni qısa idxal bəyannaməsinin verilməsi malların sürətli şəkildə sərhəddən keçərək sahibinə çatdırılmasını, təhlükəsizliyin, şəffaflığın təmin edilməsini, vaxt itkisinin aradan qaldırılmasını təmin edir. Qısası, mal təyinat nöqtəsinə hərəkətdə olarkən, artıq gömrük əməliyyatlarının əsas hissəsi həyata keçirilir.

İlkin məlumat mübadiləsi prinsipi, yəni qısa idxal bəyannaməsinə dair fikir və müddəalar xüsusilə ən mötəbər beynəlxalq sənədlərdə öz əksini tapıb.

Ümumdünya Gömrük Təşkilatı (ÜGT) çərçivəsində qəbul olunmuş "Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında Konvensiya"nı (Kioto Konvensiyası) göstərmək olar. Kioto Konvensiyasının "A" xüsusi əlavəsinin 1-ci fəslində malları əvvəlcədən bəyanetməyə dair standartlar müəyyən olunub.

Eyni zamanda, 2005-ci ildə ÜGT çərçivəsində qəbul olunmuş "Qlobal ticarətin təhlükəsizliyinin təmin olunması və sadələşdirilməsi üzrə Çərçivə Standartları"nda mallara dair məlumatların əvvəlcədən gömrük orqanlarına təqdim edilməsi bu standartların əsas elementlərindən birini təşkil edir. Sözügedən standartların 3-cü bölməsinin 2.1.3-cü maddəsində də malların idxalı və ixracı zamanı daşıyıcı və ya onun nümayəndəsi tərəfindən ilkin məlumatların gömrük orqanlarına elektron şəkildə təqdim edilməsi müəyyən olunub. Qeyd olunan standartlarda həm də, nəqliyyat növündən asılı olaraq, mallara dair ilkin məlumatların verilməsi üzrə vaxt çərçivələri tövsiyə edilib: avtomobil nəqliyyatı - 1 saat öncə, dəmir yolu - 2 saat öncə, hava nəqliyyatı - 4 saat öncə, dəniz nəqliyyatı - 24 saat öncə.

İlkin bəyanetmə üzrə standartlara əsaslanaraq bu prinsip dünya ölkələri tərəfindən tətbiq olunur. Avropa İttifaqının Gömrük Məcəlləsinin 127-ci maddəsinə əsasən, İttifaqın gömrük ərazisinə gətirilən mallara dair əvvəlcədən bəyannamə təqdim edilməlidir.

O da qeyd edilməlidir ki, ilkin bəyanetmə prinsipi Avrasiya İqtisadi Birliyinin gömrük qanunvericiliyində də müəyyən olunub. Bu prinsip Rusiya, Qazaxıstan, İran, Türkiyə və digər qonşu ölkələrdə də tətbiq olunur. Eyni zamanda, Avropa İttifaqının və ABŞ-ın gömrük qanunvericiliyində ilkin bəyannamənin verilməsi vaxtı nəqliyyat vasitəsinin növünə görə fərqləndirilir. Dəniz nəqliyyatı ilə daşınan mallar üçün bu müddət 24 saat, hava, dəmir yolu və quru yolu ilə daşınan mallar üçün 4 saat təşkil edir.

Bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasında da müvafiq tədbirlər görülüb. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 28 dekabr 2018-ci tarixli, 1431 nömrəli Qanununa uyğun olaraq, Gömrük Məcəlləsinin 113-cü maddəsinə edilən dəyişikliyə əsasən, fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi halları istisna olmaqla, mallar gömrük ərazisinə gətirilməzdən əvvəl gömrük orqanlarına elektron formada qısa idxal bəyannaməsi verilməsi müəyyən olunub. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli, 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nın 13.1.-ci bəndində də elektron formada qısa idxal bəyannaməsinin verilməsi təsbit edilib. Eyni zamanda, Gömrük Məcəlləsinin 116-cı maddəsinə uyğun olaraq, xarici ticarət iştirakçısı qısa idxal bəyannaməsi verilməsini istisna etmək istəyərsə, bu zaman qısa idxal bəyannaməsinin təqdim edilməsi üçün nəzərdə tutulmuş son müddət başa çatanadək mallara dair gömrük bəyannaməsi verilə bilər. Qanunvercilikdə həm də qısa idxal bəyannaməsinin verilməməsinə görə məsuliyyət tədbirləri müəyyən olunub. Gömrük Məcəlləsinin 113-cü maddəsində qısa idxal bəyannaməsinin verilməməsinə görə bəyannaməçinin inzibati məsuliyyətinə səbəb olması təsbit edilib və İnzibati Xətalar Məcəlləsində də müvafiq cərimə tədbirləri müəyyən edilib.

Müəllifin "O bəyannaməni yükdən əvvəl necə təqdim etmək olar" sualının cavabı isə çox sadədir. Şübhəsiz ki, hər bir xarici ticarət iştirakçısı istənilən malı müvafiq alqı-satqı, malların dəyərinin ödənildiyini göstərən sənəd əsasında alır və hansı daşıyıcı şirkət tərəfindən ölkəyə gətirildiyini bilir. Qısa idxal bəyannaməsi üçün də bu qəbildən olan sadə məlumatlar kifayətdir. Üstəlik, bu məlumatların elektron qaydada gömrük orqanına ötürülməsinə gömrük xidməti haqqında mənfi rəy yazmağa sərf olunandan daha az vaxt tələb olunur.

Onu da qeyd edək ki, Dövlət Gömrük Komitəsi Prezident İlham Əliyev tərəfindən son dövrlərdə gömrük sistemində həyata keçirilən islahatlar, yeniliklər və tətbiqlər barədə sahibkarlarla, onları birləşdirən aidiyyəti qurumlarla mütəmadi keçirilən görüşlər, mətbuat konfransları və digər vasitələrlə ictimaiyyəti davamlı olaraq əvvəlcədən məlumatlandırır. Cəmiyyətdə kifayət qədər tanınmış şəxs olan Şahbaz Xuduoğlunun həm də xarici ticarət iştirakçısı kimi gömrük sistemində tətbiq edilən və şəxsən özünün fəaliyyət və maraq dairəsində olan bu məlumatlardan xəbərsiz olması isə inandırıcı deyil.

Eyni zamanda, müəllif "gömrük sahibkarların belini qırır" ifadəsini işlətməklə, qısa idxal bəyannamələrinin tətbiqinə görə sahibkarların cərimələr ödədiyinə, əlavə məsrəflərə məruz qaldığına eyham vurmağa çalışır. Ancaq gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi vasitəsilə aparılan araşdırma zamanı məlum olub ki, həyata keçirilmiş idxal əməliyyatları üzrə qısa idxal bəyannaməsinin verilməməsi halları ümumi həcmin 0,7 faizini təşkil edir ki, bu da xarici ticarət iştirakçıları tərəfindən qanunvericliyə riayət edilməsi göstəricisinin yüksək olduğunu təsdiqləyir və bu göstərici aylar üzrə azalmaqdadır.

Göründüyü kimi, adında "Qanun" sözü olan quruma rəhbərlik edən şəxs dövlətin qanunlarına hörmətsizlik edir və üstəlik, həmin qanunların icrasını həyata keçirən dövlət qurumuna böhtan atmağa çalışır.

Xatırladaq ki, qanunları pozmaq, inzibati məsuliyyətlə yanaşı, həm də ayıb sayılır. Ayıbı isə ictimailəşdirmək deyil, ondan utanmaq lazımdır.

# Bakıda özəl çimərliklər var, ictimai çimərliklər niyə olmasın...

## Elçin Rüstəmov: "Ölkədə ictimai çimərliklər təşkil olunmalıdır"

**Çimərlik mövsümünün başlamasına sayılı günlər qalıb. Həmişə olduğu kimi, bu il də istirahətini şəhərdən kənarda keçirə bilməyənlər çimərliklərə üz tuturlar. Amma bu o demək deyil ki, paytaxt və ətraf ərazilərdə yerləşən çimərliklərdə istirahət ucuz başa gəlir.**



Əslində, həftədə 1-2 dəfə çimərliyə üz tutmaq istəyənlərin xərclədiyi məbləğ hər hansı istirahət mərkəzində ödədiyi pulla eynilik təşkil edir. Belə ki, çimərliklərə giriş 1 manatdan 20 manatadək dəyişir. Dənizə girişin pullu olmasından başqa, burada əylənmək və dincəlmək istəyənlər digər xidmətlərə görə də pul ödəməlidirlər.

Təbii ki, özəl çimərliyə daxil olmaq üçün müəyyən məbləğdə vəsait xərcləməlisən. Nəzərə almaq lazımdır ki, hər kəs özəl çimərlikdə istirahət edə bilmir. Bu səbəbdən də ölkədə özəl çimərliklə yanaşı, ictimai çimərliyin yaradılması təklif olunur. Belə bir təklif Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev tərəfindən səsləndirilib. O bildirib ki, bu olduqca vacib məsələdir: "Ölkədə özəl çimərliklər olsa da, onların sayının az olması narahatedicidir. Dünyada çimərliklərin, demək olar ki, hamısı ictimaidir. Hansısa qurumlar orada öz xidmətlərini təklif edə bilərlər".

Qeyd edək ki, "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017-2020-ci illər üçün Tədbirlər Planı"nın icrasının müzakirə edilməsi məqsədilə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sədrliyi və aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdi. Həmin görüşdə nazir bildirmişdi ki, Tədbirlər Planının icrası çərçivəsində cari ildə çimərlik mövsümünün açılışına qədər Bakıda 6 özəl, 6 ictimai, Xaçmazda 2 özəl, 2 ictimai, Lənkəranda 2 özəl, 1 ictimai, Astarada 1 özəl, 1 ictimai çimərliklərin yaradılması planlaşdırılır. Ancaq hələ ki, bu sahədə hər hansı bir irəliləyiş yoxdur.

*"İctimai çimərliklərin sayının çox olması turist sayının artmasına təsir edən amillərdən biridir"*

**Özəl çimərliklərin yaradılmasının vacibliyi barədə fikir bildirən turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bizimlə söhbətində qeyd etdi ki, ölkədə ictimai çimərliklər təşkil olunmalıdır:** "Çimərlik turizmi inkişaf etməlidir. Bu sahəyə xüsusi diqqət ayrılmalıdır. Məlumdur ki, son illər ölkəyə gələn turistlərin sayı gündən-gündən artır. Turistlərin bir qismi çimərlik turizminə üstünlük verir.

Azərbaycanda çimərlik mövsümü qısamüddətli davam edir. Hesab edirəm ki, ictimai çimərliklərin yaranması turizm sektoruna xeyli müsbət təsir göstərəcək".

E.Rüstəmov bildirdi ki, xarici ölkələrdə özəl çimərliklərlə yanaşı, ictimai çimərliklər də fəaliyyət göstərir. İctimai çimərliklərin sayının çox olması turist sayının artmasına təsir edən amillərdən biridir.

***Günel CƏLİLOVA***

# Vətənpərvərlik insanın daxilində olan bir hissdir

**Tariximizin hansı səhifəsini vərəqləsək, orada igid babalarımızın keçdiyi qəhrəmanlıq yollarının izinə rast gələrik. Çünki yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə əsas şərtdir. Məhz bu amil vətənpərvərliyi şərtləndirir. Əsl vətənpərvər isə Vətənə məhəbbətini sözdə deyil, gördüyü işdə, çəkdiyi zəhmətdə, fəaliyyətində nümayiş etdirir. Məhz buna görə də vətənpərvərliyin meyarı sözlə əməlin üst-üstə düşməsidir.**




*Bu hiss olmasa, nə Vətəni, nə torpağı, nə də valideyni sevmək mümkündür...*

Azərbaycan Vəkillər Kollegiyasının üzvü Rövşən Qasımov qeyd edib ki, hər bir insan vətənpərvərliyi əməlləri, gördüyü işlərlə sübut etməlidir: "Bütün sevgilərin əzəli, bünövrəsi Vətən sevgisi, insanlığa, haqqa, ədalətə və sülhə olan sevgidir. Bu sevgi qanlarına hopmuş insanlar üçün öz şəxsi arzuları ikinci dərəcəli olur. Onlar öz sevdiklərinə qovuşmaq həsrətilə qovrulsalar da, xalqının, millətinin, Vətəninin rifahı onlar üçün hər şeydən irəlidə olur. Tarixdən düzgün nəticə çıxara bilməyən millət isə tənəzzülə uğraya bilər. Hər kəs öz işində məsuliyyətli olarsa, cəmiyyətin həyatında neqativ hallar da azalar. Fani dünya heç kimə qalmayıb, heç bundan sonra da qalmayacağı dəqiqdir. Bu dünyada qalan insanın əməlləridi. Müdriklərimiz deyib ki, iki cür əməl var, bir insanlara qarşı əməlindi, bir də Vətən qarşısında əməlindi. Vətən qarşısında nə qədər yaxşı əməl sahibi olsan, bu torpağa nə qədər dərin köklərlə bağlansan, bu torpaq üzərində yaşayanlar da səni unutmayacaq. Bu həyatda istənilən məsələni çox asanlıqla həll etmək mümkündür. Ən önəmli olan tərəf isə ondan ibarətdir ki, bütün məsuliyyətlərin və zəhmətlərin fövqündə bir müqəddəs ad yaşamalıdır. Mən deyərdim ki, bu ad bizim üçün dünyanın ətrafında fırlandığı orbit olmalı, kimliyindən asılı omayaraq, hər birimizin ruhunda yaşamalı və hər kəs də onu yaşatmalı, qorumalı və inkişaf etdirməlidir. Bu ad Azərbaycandır.

Gəlin, bu adın qarşısındakı məsuliyyətin bütün məsuliyyətlərdən yüksəkdə dayandığını dərk edən və hər addımında məhz bu əqidəyə xidmət edən vətənpərvər Azərbaycanlı kimi yetişməyə çalışaq!"

R.Qasımov əlavə edib ki, milli mənlik şüuru, milli özünüdərk vətənlə, torpaqla, mədəniyyətlə, incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni və mənəvi mühitin qavranılması, dərk edilməsi və təsdiqidir. Milli mənlik şüuru formalaşmış və tərbiyə olunmuş hər bir insan, vətəndaş, öz xalqının mənəvi sərvətlərinin tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətlərini bütün dolğunluğu ilə dərk edir, ona düzgün qiymət verir: "Tarix təsdiq edir ki, heç bir inkişaf, heç bir təkamül, heç bir hadisə zaman və məkan təsirindən kənarda baş vermir. Milli-mənəvi mühitin təşəkkülü, sosial mühit bütün xalqımızın, o cümlədən, gənclərin cəmiyyətdəki sosial vəziyyətinə, öncə, onların hiss və duyğularına, ictimai, həyatın hadisə və faktlarını duymaq, qavramaq və dərk etmək qabiliyyətinə əsaslı təsir göstərir. Gənclər mənsub olduğu millətə aid bütün artibutlara: milli bayrağa, gerbə, himnə, dini etiqada və s. fəal münasibət bəsləyir, qiymət verir, özlərinin əməli fəaliyyəti üçün nəticə çıxarmaq imkanı əldə edirlər. Torpaq, vətən insanın yaşayış və əbədiyyət məskəni, ulularımızın müqəddəs məbədidir.

Beləliklə, vətənpərvərlik Vətənə olan ülvi məhəbbətdir. Vətənpərvərlik insanın daxilində olan bir hissdir. Bu hiss sənin daxilində yaranmayıbsa, o zaman nə Vətənini, nə torpağını, nə də valideynlərini sevə bilərsən.

"Vətənpərvərəm" deməklə iş bitmir. Hər bir insan vətənpərvərliyi əməlləri, gördüyü işlərlə sübut etməlidir. Vətənpərvərlik daxildən gələn bir hissdir ki, onu da müəyyən vasitələrlə tərbiyələndirmək, düzgün istiqamətə, milli mənlik şüurunun möhkəmlənmə-sinə yönəltmək lazımdır.

*Alim*

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

# Yazıçı-publisist Yasif Nəsirlinin "Zirvə" avtobioqrafik kitabı nəşr edilib

**Hər insana, qələm adamına nəsib olmur ki, sənətin, sözün zirvəsinə ucala bilsin. Zirvəyə gedən yol qaranlıq, dar yollardan, çətin keçilən yarğanlardan, min bir yolu olan labirintlərdən gəlib keçir.**

Əməkdar incəsənət xadimi, alim, tədqiqatçı, tərcüməçi, yazıçı-publisist, tanınmış ictimai xadim Yasif Nəsirli zirvəyə əli çatan, bu ənginliyə ucalan qələm adamıdır desək yanılmarıq. "Ömür", "Dünya", "Zaman" romanlarının, "Günəşlə görüş", "Mənalı ömür", "Təyyarə havaya uçur", "Çinar vüqarı", "Qayıdacağam", "İnsanlar, görüşlər", "Görə bilmədim" və başqa kitabların müəllifi Y.Nəsirli zəngin və mənalı bir ömür yaşamaqla yanaşı, çox dolğun, faydalı, maraqlı bir yaradıcılıq yolu keçib.

Y.Nəsirlinin bir neçə həftə əvvəl işıq üzü görən növbəti kitabı - "Zirvə" fəlsəfi-publisistik romanı müəllifin oxuculara yeni ərmağanıdır. Söz yox ki, hər yazıçı özünü yazır, istənilən əsərində öz həyatının görünməyən tərəflərinə işıq tutur. "Zirvə" də bu baxımdan çox əhəmiyyətlidir.

**Çünki Y.Nəsirli bu əsərində həyatı, taleyi, yaradıcılıq yolu, eyni zamanda da keçdiyi burulğanlı, çətin ictimai-siyasi fəaliyyəti barədə oxuculara məlumat verir.**

Y.Nəsirlinin respublikanın ictimai-siyasi həyatında özünəməxsus yeri var. Vətənpərvər ziyalı, yazıçı, əsl vətəndaş olan Y.Nəsirlinin "Zirvə"si, sözün həqiqi mənasında, sözə ucaldılan bir yaradıcılıq abidəsidir.

"Təknur" nəşriyyatında işıq üzü görən "Zirvə"nin redaktorları İmaməddin Zəkiyev və Sədiyar Cahangiroğludur.

"Zirvə"yə "Onun böyük həyat yolu, yaxud Yasif Nəsrli dünyası" adlı ön söz yazan filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Qəzənfər Kazımov Y.Nəsirli haqqında olduqca maraqlı fikirlərini bölüşüb.




"Yasif Nəsirli görkəmli bir ziyalı kimi, yüksək adamlar haqqında heç bir qısqanclığa yol vermədən, səxavətlə, ürək dolusu ilə danışır, böyük adamların böyüklük keyfiyyətini ustalıqla üzə çıxara bilir. Belə hallarda onun insana, mənən yüksək olanlara sonsuz məhəbbəti də ifadə olunur. Bu cəhətdən müəllimi, elmi rəhbəri və çox sevdiyi yazıçı Mir Cəlal, Mirzə İbrahimov, tənqidçi Qulu Xəlilov, yazıçı Əlfi Qasımov haqqında bədii-publisistik yazıları diqqəti daha çox çəkir" - deyə Q.Kazımov qeyd edir.

"Zirvə" avtobioqrafik romanında yazıçı ayrı-ayrı şəxsiyyətlər, ədəbi simalar, ictimai-siyasi xadimlərlə bağlı dərin, məzmunlu, eyni zamanda da maraqlı məlumatlarla oxucunu tanış edir. Bu yazılarda yazıçının içində çəkdiyi ağrılar, hər an qanayan Qarabağ yarası, əlimizin ünümüzün yetmədiyi yurdlarımızın harayı dil açıb danışır, zümrüd bulaqların göz yaşları axır...

**"Zirvə" avtobioqrafik romanının kitab şəklində işıq üzü görməsi münasibətilə dəyərli qələm sahibi, tanınmış ziyalı, ictimai xadim Y.Nəsirlini ürəkdən təbrik edir, ona yaradıcılıq uğurları, cansağlığı diləyirik.**

*İradə SARIYEVA*

**Ədəbiyyat həm düşüncədir, həm təfəkkür, həm də bir könül işidir. O qədər "şairəm" deyib "şair işləyən"lər var ki, yazdıqlarının bir misrasının belə şeirə, poeziyaya aidiyyəti yoxdur. Günümüzdə beləlri bəs deyincədir.**

# Yazıçı-bənna Prezident təqaüdünə layiq görüldü

## *Vasif Zöhraboğlu: "Prezident mükafatı almağımı eşidəndə keçirdiyim hissləri sözlə ifadə etmək çox çətindir"*

Ancaq elə adamlar da var ki, onlar bu şəhərdə "şair işləmir", sadəcə, könlünün sözünə qulaq asıb poeziya yaradırlar. Əsl şairin ya bənna, ya fəhlə, ya adi bir çörəkçi, ya bir mühəndis, ya bir müəllim, ya da elm xadimi olması fərq etmir, əsas odur ki, o, şeir yazır.

Bənna tanıyıram ki, gözəl şairdir, şeirləri ürəkləri riqqətə gətirir. Onun bənna əlləri, şair ürəyi var. Bu günlərdə məlumat yayıldı ki, şair-bənna Vasif Zöhraboğlu Prezident mükafatına layiq görülüb.

Prezident mükafatçısı, bənna-şair Vasif Zöhraboğlu ilə əlaqə saxladım və ondan kiçik müsahibə götürdüm.

**- Vasif bəy, yazdığınız şeirlərə görə Prezident mükafatına layiq görülmüsünüz. Bu bir təsadüfdürmü?**



- Sözün açığı, mənim heç vaxt Azərbaycan Yazıçılar Birliyinə üzv olmaq niyyətim olmayıb. Yəni bu barədə heç düşünməmişdim. Prezident mükafatı almaq üçün Azərbaycan Yazıçılar Birliyinə üzv olmaq tələb olunur. Bundan başqa da bir şair kimi özünü təsdiqləməlisən, sənin yazdıqlarını oxuyan, sənə inanan, etimad göstərən oxucuların olmalıdır. Bu ona görə lazımdır ki, sənin yazdığın həqiqətən də şeirdir, cızma-qara deyil. Bilirsiniz ki, mən tikintidə çalışıram, bənnalıqla məşğulam, ev tikirəm, ev təmir edirəm. Bu səbəbdən də ədəbiyyatla bağlı tədbirlərdə sıx-sıx iştirak edə bilmirəm. Ancaq şeirlərim mətbuatda dərc edilir. Mənim yazılarımı, şeirlərimi izlədilər və sonra mənə təklif etdilər ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü ol. Üzv oldum. Əslində, bilmirdim ki, Prezident mükafatı, təqaüd almaq üçün hansı proseslərdən keçmək lazımdır. Mən Prezident mükafatı almağımla bağlı Yazıçılar Birliyinə müraciət etdim və bir ay keçdikdən sonra "siz Prezident mükafatına layiq görülübsünüz" dedilər.

**- Bu xəbəri eşidəndə hansı hissləri keçirdiniz?**

- Əlbəttə, Prezident mükafatı almağımı eşidəndə keçirdiyim hissləri sözlə ifadə etmək çox çətindir. Çünki elə hisslər var ki, onları sözlə deyəndə onlar cılızlaşır. Bu hisslər də sevgi kimidir. Şeirlər də sevgidən yazılır, sevgidən yazdığın şeirlərə görə uğurlar, nailiyyətlər qazanırsan. İşdə idim. Mənə mesaj gəldi, bu mesajdan o qədər duyğulandım ki, sözlə deyə bilmirəm. Həmin gün sevindiyimdən işləmədim.

**- Bir bənnanın belə bir mükafata layiq görülməsi sözsüz ki, diqqəti daha çox çəkir... Bu sizə əsas vermirmi ki, bütövlükdə, ədəbiyyatla məşğul olasınız?**

- Mən, əslində, özümü ədəbiyyat adamı hesab etmirəm. Düşünürəm ki, ədəbiyyat ədəbli həyat deməkdir. Ədəbi olan hər kəs ədəbiyyatçıdır. Fərq etmir ki, nəsr yazırsan, yoxsa şeir, əsas odur ki, yaratdığın ədəbiyyat olsun. Yazdıqlarımız göstəri, görüntü olmasın, həqiqi ədəbiyyat olsun. Mən özümü ədəbiyyat nəzəriyyəsini dərindən bilən birisi hesab etmirəm. Bizim kifayət qədər ədəbiyyatşünasımız var. Mən, sadəcə, şeir yazıram. Düşünürəm ki, mənim ədəbiyyatım elə şeirlərimdir. İndiyə qədər iki kitabım nəşr olunub. 2015-ci ildə "Ömür birgünlük yuxudur", 2019-cu ildə "Natamam təklik" kitablarım işıq üzü görüb. Sonuncunun təqdimatı Gəncliyə Yardım Fondunda oldu.



*"Orta məktəbdə 6-cı sinfə qədər oxumuşam, sonra təhsilimi yarımçıq qoymaq məcburiyyətində qaldım"*



*"Mən tikintidə çalışıram, bənnalıqla məşğulam, ev tikirəm, ev təmir edirəm"*

**- Sizin yaradıcılığınızı izləyirəm və görürəm ki, kifayət qədər ciddi ədəbiyyat adamı, görkəmli şairlər yaradıcılığınız haqqında müsbət fikirlər söyləyib. Bu, Sizin yaradıcılığınıza hansısa mənada təsir edirmi?**

- Təbii ki, məni izləyən oxucularım var. Elə oxucular var ki, onlar şeirlərimi elə təhlil edirlər, özümə "mən yazanda belə yazmamışdım, nə gözəl izah edirlər" deyirəm. Doğrudur, şeirlərim haqqında Xalq şairi Musa Yaqub, Ayaz Arabaçı, Ramiz Qusarçaylı, Fərqanə Mehdiyeva, Qulu Ağsəs, İradə Tuncay və başqaları müsbət fikirlər deyiblər.

**- Adlarını qeyd etdiyiniz qələm adamlarının hamısı kifayət qədər ciddi simalardır.**

- Bəli, onlar ədəbiyyatda öz sözünü demiş, tanınmış simalardır. Mən görkəmli ədəbiyyat adamlarının sözlərindən güc almışam, onların fikirləri mənə stimul verib ki, yazım, həqiqətən də yazdığım şeirdir.

**- Bildiyim qədər, Sizin heç orta təhsiliniz də yoxdur. Doğrudur?**

- Əslən Şəkinin Oxud kəndindənəm, orada doğulmuşam. Orta məktəbdə 6-cı sinfə qədər oxumuşam, sonra təhsilimi yarımçıq qoymaq məcburiyyətində qaldım.

**- Niyə orta təhsilinizi davam etdirmədiniz?**

- O vaxt bir çox çətinlik oldu. Uşaqlığımız müharibə illərinə düşdü. Ölkəmiz təzə müstəqillik qazanmışdı. Müharibə və sosial çətinliklər mənim uşaqlığımı əlimdən aldı. O dövrdə yaşamaq çox çətin idi. Saatlarla əlimizdə talon çörək növbəsinə dayanırdıq. Biz də ehtiyacı olan bir kənd adamı kimi başqaları kimi Bakıya üz tutduq. Məqsədim işləmək idi. Bu səbəbdən də orta təhsilim yarımçıq qaldı. Həmin dövrlər bizim üçün çox çətin olduğu üçün, atama kömək etmək qərarına gəldim. Onu da deyim ki, mütaliədən əl çəkmədim, mütəmadi olaraq oxudum, amma mütaliə təhsilin yerini vermir. Mən bənnalığı atamdan öyrənmişəm, ustadım atam olub. Amma ilk dəfə əlimə mala götürüb sərbəst işlədiyim vaxt yadımdan çıxıb, çünki çox əvvəllər olub. Əsgərlikdən əvvəl bu işlə məşğul olmağa başlamışam. Mən erkən əməyə cəlb edilən uşaqlardan olmuşam. Dediyim kimi, mənim uşaqlığım olmayıb, uşaqlığımı müharibə, ehtiyac, problemlər əlimdən alıb. Mən tikintidən əvvəl çox yerdə işləmişəm. Deməkdən utanmıram, çünki zəhmət çəkmişəm. Bazarda araba sürdüyüm, alver etdiyim dövrlər də olub. Həyatın hər üzünü görmüşəm, onun tufanından, boranından, təlatümlərindən keçmişəm. Hazırda da, bildiyiniz kimi, həm şeirimi yazıram, həm də bənnalıqla məşğul oluram.

***İradə SARIYEVA***

# Dilənçilərin yanında gəzdirdikləri uşaqlarla bağlı şok şayiələr...

**Zaman-zaman şəhərdə qucağında uşaq olan dilənçi qadınlara rast gəlirik. Görürsən ki, uşaq əksər hallarda anasının qucağında mışıl-mışıl yatır. Əsasən belə qadınlar əhalinin gur yerlərində, gediş-gəlişin sıx olduğu yerlərdə dilənirlər. İnsanlar görəndə ki, uşaq anasının qucağındadır, bu səbəbdən dilənçiyə pul verməkdə maraqlı olurlar.**



*"O üzdən, belə hallar ətraflı yoxlanılmalıdır"*

***Əhməd Qəşəmoğlu:** "Həmin uşaqlara yatmaq üçün uyuşdurucu həb verilib-verilmədiyini konkret olaraq demək çətindir"*

Bir növ, uşağa yazıqları gəldiyindən bunu edirlər.

Ancaq fikir versək görərik ki, bu zaman çox vaxt uşaqlar yatmış vəziyyətdə olurlar. Görürsən ki, metro və marşrutlarda, səs-küyün, kütlənin sıx olduğu yerlərdə körpələr bütün günü yatırlar. Prinsipcə, normalda uşaq belə yerlərdə fasiləsiz yatmaz. Nə qədər həmin mühitə alışsa belə, ən azından, arada bir oyanmalıdır. Oyanandan sonra bir neçə saat yatmamalıdır. Ancaq çox az hallarda görürsən ki, həmin uşaqlar oyaqdırlar. Oyaq olanlar belə, çox halsız vəziyyətdə kənarda baş verənləri izləyirlər. Belə iddialar var ki, sözügedən uşaqların bütün günü yatmış vəziyyətdə olması təsadüfi deyil. Belə söz-söhbətlər var ki, bu körpələrə uyuşdurucu həblər verilir. Yəni uyuşdurucu verirlər ki, səsləri çıxmasın. Bu səbəbdən bütün günü həmin uşaqlar yatılı vəziyyətdə olurlar. Yoxsa, normalda uşağın anasının qucağında bu qədər yatması mümkün olan iş deyil.

Maraqlıdır, bununla bağlı deyilənlər nə dərəcədə həqiqətə uyğun ola bilər? Doğrudanmı həmin uşaqlara uyuşdurucu həblər verilir?

**Məsələyə münasibət bildirən sosioloq Əhməd Qəşəmoğlunun sözlərinə görə, bu barədə birmənalı fikir söyləmək çətindir:** "Ona görə də bu ətraflı araşdırılmalıdır. Ondan sonra dəqiq fikir yürütmək olar. Ümumən, dilənçilərlə bağlı ölkənin xüsusu proqramı olmalıdır. Çünki yoxlanılmalıdır ki, dilənçilər kimlərdir. Sözügedən problem indinin söhbəti deyil. Müxtəlif ölkələrdə dilənçilərin şəbəkələri olub. Bəzən buna yeraltı səltənət də deyilir. İstənilən halda, bunlar şəbəkə şəklində olub dilənirlər. Bunların da arxasında müəyyən adamlar dayanırlar. Hesab edirəm ki, belə dilənçilərin olması ölkə üçün yaxşı hal deyil. Dilənçi həqiqətən ehtiyacı olan şəxsdirsə, ona ünvanlı sosial yardım verilməlidir. Yox, burada başqa niyyətlər varsa, o zaman bunun qarşısı alınmalı və müvafiq tədbirlər görülməlidir. Həmin uşaqlara yatmaq üçün uyuşdurucu həb verilib-verilmədiyini konkret olaraq demək çətindir. Bunu xüsusi olaraq araşdırmaq lazımdır.

**Başqa bir tərəfdən, onu da nəzərə almaq lazımdır ki, həmin uşaqların həyat tərzi digər normal uşaqların həyat tərzi kimi deyil. Onlar bütün günü o vəziyyətdə, şəraitdə olduğu üçün, ola bilsin ki, günün çox hissəsini yatırlar. Bu da ola bilər. O üzdən, belə hallar ətraflı yoxlanılmalıdır. Yalnız ondan sonra bir sıra məsələlərə aydınlıq gətirmək olar".**

***Vidadi ORDAHALLI***

# Adambaşına 25 manat fitrə bir ailə üçün nə deməkdir...

**Ölkəmizdə yüksək səviyyədə keçirilən müqəddəs Ramazan bayramında hər bir ailə yetim-yesirə, kasıb-kusuba, əlsiz-ayaqsıza, bir sözlə, ehtiyacı olanlara fitrə-zəkat verdi.**



*"Ailədə 4 nəfər varsa, o ailə 6 manat həcmində fitrə, zəkat verməlidir"*

***Hacı Təyyar Hüseynli:** "Hesab edirəm ki, bayram günlərində insanların 25 manat həcmində fitrə, zəkat verməli olduğunu iddia edən adamlar bu bayramdan sui-istifadə edənlərdir"*

Ümumiyyətlə, Ramazan bayramının özəlliklərindən biri insanların yardımlaşması, qazancını paylaşmasıdır. Əlbəttə, hər kəs öz büdcəsinə uyğun olaraq ehtiyacı olanlara fitrə, zəkat verdi. Bayram günlərində sosial şəbəkələrdə bəzi tanınmış din xadimlərinə istinadən məlumatlar yayıldı ki, hər ailə adambaşına 25 manat həcmində fitrə, zəkat verməlidir. Sosial şəbəkələrdə yayılan bu məlumat sözsüz ki, cəmiyyətdə böyük narazılıq yaratdı. Belə çıxdı ki, ailədə 5 nəfər varsa, o ailə 125 manat fitrə, zəkat verməlidir. Ümumiyyətlə, indiyə qədər belə bir tələbin olmadığı məlumdur. Birdən-birə adambaşına 25 manat fitrə, zəkatın verilməsi tələbinin gündəmə gəlməsi böyük ajiotaj yaratdı.

Hətta bəzi dindarlar bildirdilər ki, adambaşına 25 manat fitrə, zəkatın müəyyən edilməsi məsələsi insanların inancından, Ramazan ayına bağlılığından sui-istifadədir. Dindarlar qeyd etdilər ki, hər bir ailə üzvünə görə 25 manatın müəyyən edilməsi düzgün deyil. Onların bildirdiyinə görə, fitrə, zəkat hər ailə üzvünə görə 1 manat 50 qəpikdir. 25 manat məsələsinə qarşı çıxan dindarların bildirdiyinə görə, hətta ən varlı adam belə 1 manat 50 qəpik həcmində fitrə, zəkat verməlidir.

**Bu kimi söhbətləri meydana atmaqla bəzi dindarların çaşqınlıq yaratdığını deyən ilahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, insanların inancından sui-istifadə etmək olmaz.** "Əvvəlcədən onu deyim ki, fitrə, zəkatın verilməsi məcburi deyil, bu, ixtiyari məsələdir. Yəni heç kəsi məcbur etmək olmaz ki, sən mütləq fitrə, zəkat verməlisən. Ancaq bilirsiniz ki, Ramazan bayramı yardımlaşma, bölüşmə bayramı olduğu üçün, insanlar bir-birinə dayaq olur, dəstək göstərirlər. O ki, qaldı veriləcək fitrə, zəkatın məbləğinə, bu, ölkələrin, cəmiyyətlərin vəziyyətinə görə dəyişir. Yəni hansı ölkədə hansı məhsullara tələbat daha çoxdursa, həmin məhsulun 3 kiloqramının dəyəri qədər fitrə, zəkat verilməlidir. Məsələn, bizdə çörəyə tələbat çoxdur və biz üç kilo unun, yaxud çörəyin qiymətinə uyğun fitrə, zəkat verməliyik. Bu da edir 1 manat, 1 manat 50 qəpik. Əgər ailədə 4 nəfər varsa, o ailə 6 manat həcmində fitrə, zəkat verməlidir. Elə ölkələr var ki, orada xurmanın, yaxud qarabaşaqın və digər məhsulların 1 kiloqramının qiymətinə görə fitrə, zəkat müəyyən edilir. Mən də eşitdim ki, bəziləri camaatın 25 manat həcmində fitrə, zəkat verməli olduğunu deyir. Onlar bunu nəyə əsasən deyirlər, bilmirəm, amma fakt budur ki, dövriyyəyə buraxılan həmin 25 manat söhbəti heç bir tələbə uyğun deyil. Bu yanlış məsələdir. Ümumiyyətlə, fitrə, zəkat məsələsində varlı ilə kasıbın, orta səviyyədə dolanan insanın heç bir fərqli yoxdur. Hamı eyni məbləğdə fitrə, zəkat verməlidir. Kimsə varlıdırsa, o daha artıq pul verməlidir və sair, belə məsələ yoxdur. Hesab edirəm ki, bayram günlərində insanların 25 manat həcmində fitrə, zəkat verməli olduğunu iddia edən adamlar bu bayramdan sui-istifadə edənlərdir. İnsanların inancından, bayrama münasibətindən bu cür istifadə edilməsi doğru deyil. Adambaşına 25 manat pulu yığıb hara, kimə verirlər, burada şəffaflıq nə dərəcədə təmin olunur? Deyə bilmərəm.

*"... Ramazanın mahiyyətinə uyğun deyil"*

Onu bilirəm ki, kimlərinsə camaatın adambaşına 25 manat fitrə, zəkat verməli olduğunu tələb kimi irəli sürməsi Ramazanın mahiyyətinə uyğun deyil. Onsuz da imkanı olan xeyirsevər insanlar yardımlaşdılar, ehtiyacı olanları sevindirdilər" - deyə H.T.Hüseynli qeyd etdi.

***İradə SARIYEVA***

№ 100 (3998) ■ Qiymətі: 40 qəpik

# BAKI XƏBƏR

8-10 İYUN 2019-cu il

www.baki-xeber.com

## "Azercell" və "Xəzər TV"nin birgə xeyriyyə layihəsi

**Hər zaman sosial layihələri dəstəkləyən bir şirkət olaraq tanınan "Azercell" Ramazan ayında da bu istiqamətdə fəaliyyətini davam etdirib. Belə ki, "Azercell" və "Xəzər TV"nin birgə təşəbbüsü ilə "Azercell"in səyyar "Mobil Göz" və "Mobil Diş" klinikaları may ayı ərzində Tərtər, Ağdam və Tovuz şəhərlərinə səfər ediblər. Aksiya çərçivəsində təşkil olunan təmənnasız müayinələrdən, ümumilikdə, 3000-ə yaxın insan faydalanıb.**



Qeyd edək ki, səfərlərdə iştirak edən həkimlər 5 iyun 2019-cu il tarixində "Xəzər TV"də yayımlanan "Səni axtarıram" verilişinin canlı efirində "Xəzər TV" və "Azercell" rəhbərliyi adından layihədə göstərdikləri dəstəyə görə xüsusi diplomlarla təltif edilib, həmçinin, "Azercell" şirkəti tərəfindən dəyərli hədiyyələrlə mükafatlandırılıblar.Vurğulamaq istərdik ki, "Azercell"in "Mobil Göz" və "Mobil Diş" klinikalarının mütəmadi olaraq təşkil etdiyi təmənnasız müayinə və müalicə tədbirlərindən valideyn himayəsindən məhrum uşaqlar, yaşlılar, aztəminatlı ailələr və məcburi köçkünlər yararlanırlar. Ən son tibbi avadanlıqla təchiz olunan bu mobil klinikalar fəaliyyətləri boyunca on minlərlə insana yardım etməyə müvəffəq olublar.Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki Çeşməli kənd sakini Əsədov Ramiz Mehrəli oğlunun adına verilmiş traktor sürücülük vəsiqəsi itdiyindən etibarsız hesab edilir.

Gülməmmədova Nərmin Vüqar qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şahmirzəyev Murad Seyidrza oğluna məxsus, Bakı-Aeroport yolunun sol tərəfində yerləşən torpaq sahəsinə verilmiş həyətyanı sahənin qaiməsi-sertifikatı (JN-5042H, kod 00600026) itdiyi üçün etibarsız sayılır.

Abdullayev Elçin Pənah oğlunun adına, Xətai Rayon Polis İdarəsi tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi AZE N07628237 itdiyi üçün etibarsız sayılır.

Abbasov Gülşən Məhəmməd qızının adına, Bakı şəhəri, Xocalı küçəsi, ev 17, mənzil 90 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Əliyev Əvəzəli Məhəmməd oğluna Bakı Mühəndislik Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyev Pərvin Fazil oğluna Qərbi Kaspi Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Alasov Nəbi Əli oğlunun adına, Abşeron rayonu, Masazır kəndində yerləşən 0.20 ha torpaq sahəsinə 19.11.2014-cü il tarixdə verilmiş (reyestr N308013089563) çıxarış və həmin ərazidə yerləşən 0.08 ha torpaq sahəsinə 26.12.2014-cü il tarixdə verilmiş (reyestr N308013091336) çıxarış itdiyi üçün etibarsız sayılır.

Zeynallı Vəli Rizvan oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Rusiya İmperiyası dövründən qalan mərminin içərisindən 5100 rubl çıxdı

**Estoniyalı minaaxtaranlar Pyarnusk rayonunda Birinci Dünya Müharibəsinə aid 150 millimetrlik mərmi aşkar ediblər.**



"Oxu.az" xəbər verir ki, mərminin zərərsizləşdirilməsi zamanı onun daxilində barıt əvəzinə 1898-1910-cu illərə məxsus pul vahidləri aşkar edilib. "Pullar yaxşı vəziyyətdə olub və ateş zamanı zədələnməyib. Mərminin içərisindən 5100 rubla yaxın pul vahidi tapılıb", - minaaxtaran Oleq Şapkin deyib. Arxeologiya sahəsində qədim abidələrin qorunması şöbəsinin müdiri Ulla Kadakasın sözlərinə görə, pul vahidləri potensial təhlükələrdən qorunmaq üçün mərminin içərisində qəsdən gizlədilib. O bildirib ki, yerli sakinlər və regionun muzeyləri tapıntının tarixini araşdıracaqlar.

## Tərdən stress səviyyəsini ölçən cihaz

**Bədənimizin stressə qarşı ifraz etdiyi bir hormon olan kortizol, indilərdə yeni yaradılan geyilə bilən məhsul sayəsində tərimizdən ölçülə biləcək.**



Bir çox hormonumuz gün ərzində yaşadıqlarımız istiqamətində dəyişə bilər. Bu nöqtədə yeni yaradılan geyilə bilən texnologiya sayəsində, tərimizdən stress səviyyəmiz ölçülə biləcək. Tərimizdən asan bir formada alınan analiz nəticələri isə bir neçə gün ərzində müəyyən edilir. Belə ki, bir insanın kortizol analizlərinin nəticələrini öyrənməsi, tibbi müdaxilələr üçün də məlumatlandırıcı ola bilər. Stanford Universitetinin alimi Alberto Salleo tərəfindən idarə olunan bir qrup, birbaşa dəriyə tətbiq olunan bir cihaz sayəsində bir insanın nə qədər kortizol ifraz etdiyini qiymətləndirə biləcək. Müxtəlif xəstəliklərin erkən diaqnozu və idman performansının qiymətləndirilə bilməsi üçün yeni bir yanaşma təqdim edəcək olan texnologiya, adrenalin və ya hipofiz bezinin düz işləyib işləmədiyini göstərməyə də köməkçi ola bilər.

## Geyilə bilən cihaz sağlamlıq gətirəcək

**Müxtəlif hormon və kimyəvi maddələrin tər vasitəsilə ölçülə bilməsi üçün yeni geyilə bilən bir cihaz hazırlandı.**

Əvvəllər təri ölçmək üçün ağır məşq hərəkətləri etmək lazım idi isə, biosensor əsaslı bu cihazın təri ölçmək üçün ağır məşqlərə gərək qalmadı. ABŞ-ın aparıcı universitetləri arasında duran Sinsinnati Universitetindən bir qrup alim, qolbağın köməyilə dərinin kiçik bir hissəsində bədənin tər vəzlərini xəbərdar edən geyiləbilən bir cihaz hazırladı. Daha əvvəl də tərləməyi izləmək üçün hazırlanan cihazlar mövcud idi, lakin ağır fiziki hərəkətlər ön planda idi. Yeni hazırlanan bu cihaz ağır fiziki hərəkətlərə ehtiyac olmadan, müxtəlif hormonların və kimyəvi maddələrin tər vasitəsilə ölçülə bilməsini təmin edir. Həmin qrup dərinin müəyyən bir nahiyəsində tərləməyi xəbərdar etmək üçün üç addımlı bir üsul hazırladı. Əvvəlcə karbakol adlı bir kimyəvi maddə ehtiva edən gelin köməyilə tərləmə təmin edildi. Ardından biosensor ilə dəri arasında yaxşı təmas təmin etmək üçün bir köpük plombu hazırlandı. Daha sonra isə karbakolun dəriyə kiçik bir elektrik cərəyanı ilə istiqamətləndirilməsini təmin edən iontoforez adlı bir əməliyyat daxil edildi. Bu əməliyyatın cihazın geyildiyi bir neçə gün boyunca tər əsaslı sensor nəticələrini müvəffəqiyyətlə çıxardığı müşahidə edildi. Sağlamlıq sektorunda inqilab yarada biləcək bu biosensorların geniş bir istifadə sahəsi mövcuddur.





**Qoç** - Günün ilk yarısında yaradıcılıq potensialı yüksəkdir. Əvvəllər çözə bilmədiyiiz bir neçə problemi asanlıqla həll edəcəksiniz. Məsləhət və göstərişləriniz yaxın ətrafınızdakı insanların xoşuna gələcək.



**Buğa** - Kiçik problemlər, xırda anlaşılmazlıqlar, sizi təbdən çıxaran nüanslar günüdür. Neqativ emosiyalar baş verənləri dəqiq qiymətləndirməyə mane olur. Halbuki, işlərin axarı o qədər də pis deyil.



**Əkizlər** - Əlverişli, işdə və şəxsi münasibətlərdə yeni perspektivlərlə imkanlar yaradan gündür. İctimai həyatda aktiv iştirak edin. Tədbirlərə qatılın, vaxtınızı maraqlı keçirin. Nüfuzlu insanlarla görüş və danışıqlarda xeyir var.



**Xərçəng** - İşlə bağlı istənilən məsələlərin müzakirəsi üçün əlverişli gündür. Danışıqlar çətin olsa da, emosiyaların əsiri olmayın. Mövqeyinizi təmkinlə, səbrlə müdafiə edin və opponentlərin rəğbətini qazanın.



**Şir** - Günün ilk yarısında ehtiyatlı olun. Səhvə yol vermək çox asandır. Hesabat hazırlamaq, maliyyə məsələlərini həll etmək, alış-verişdə iri məbləğdə pul xərcləmək məsləhət deyil. Müsbət təmayüllərin təsiri güclənir.



**Qız** - Müsbət təmayüllərin təsiri güclüdür, gün ümumən uğurludur. Lakin məqsədə çatmaq üçün ciddi səy göstərməli olacaqsınız. Bədxahlarınız irəliləyişinizə mane olmaq, yolunuzda sədlər yaratmaq üçün əllərindən gələni edirlər.



**Tərəzi** - Səbrli, dözümlü olun. Gün böyük uğurlar və ya önəmli qələbə vəd etmir. Məqsədə çatmaq üçün vaxt gərəkdir. Boş söhbətlərə qatılmayın, yoxlanmamış məlumatlar yaymayın.



**Əqrəb** - Əlahiddə uğurlara rəğmən, gün əlverişli deyil. Qələbələr sizə kiçik, məğlubiyyət və ya uğursuzluq isə fəlakət təsiri bağışlayacaq. Bir qədər düşünün: heç də pis olmayan nəticələr əldə olunub, qiymətli təcrübəyə yiyələnibsiniz.



**Oxatan** - İşlə bağlı problemlərdən qurtulmaq mümkün deyil. Bütün diqqəti işə yönəldin, səhvləri sıralamayın. Həmkarlar və tərəfdaşlardan biri yaxşı məsləhət verəcək. Fəqət, hər şeyə rəğmən yalnız öz intuisiyanıza güvənin.



**Oğlaq** - Günün ilk yarısı qarışıq, təbəddülatlı və əndişəli vaxtdır. Kiçik problemlər, işdə anlaşılması mürəkkəb təxirəsalmalar yaşanır. Nə baş verdiyini araşdırın, qayda yaradın.



**Dolça** - Aktiv hadisələrlə zəngin gündür. Darıxmağa vaxt olmayacaq. İşlə bağlı yeni tələblər, sifarişlər və məsələlər peyda olur. Onları vaxtında həll etməyə çalışın. Liderlik keyfiyyətinizi, təşkilatçılıq qabiliyyətinizi göstərin.



**Balıqlar** - Asan gün deyil. Sağlam məntiq və praktiki davranış çətinliklərin öhdəsindən gəlməyə kömək edəcək. Planlarınızda dəyişikliklər etməyə hazır olun. İmprovizə edin. Belədə şərtlər sizinə əleyhinizə olsa da, gərəkli nəticələr əldə edəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Təhlükəli ürək xəstəliklərinin səbəbi tapılıb

**ABŞ-ın Qledstoun İnistitunun və Kaliforniya Universitetinin alimləri ürək xəstəliyinin növlərindən birinin genlərini təyin edib.**

"Deyerler.org" bildirir ki, tədqiqat zamanı mütəxəssislər ailədə eyni xəstəlikdən əziyyət çəkən uşaqların ailə genlərini təhlil etmişdir. Uşaqların atalarında xəstəliyin yüngül forması müşahidə olunmuşdur. Analarının ürəyinin isə, sağlam olması qeyd olunmuşdur. Atada uşaqlara genlərlə ötürülmüş "MKL2" və "MYH7" mutasiyası açkar edilmişdir. Uşaqlara həmçinin, analarında "NKX2-5" geni də ötürülmüşdür. Genlərdə baş vermiş dəyişiklik yalnız bir amin turşusuna təsir etmişdir. Eyni zamanda, uşaqlarda başqa genlər də tapılmışdır. Buna görə, araşdırmaçılar ürək tutmalarının baş verməsində yalnız valideynin mutasiyalarını səbəb kimi qeyd etmir. "CRISPR" texnlogiyasının köməkliyi ilə alimlər, laborator siçanların DNT-nə analoji mutasiyalar daxil etmişdir. Genlərdə dəyişiklik əmələ gəlmiş heyvanlarda, uşaqlarda olduğu kimi qüsurlar əmələ gəlmişdir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.